Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

22 MAY 2019-cu il

№ 91 (3989)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

www.baki-xeber.com

# ERMƏNİSTAN 2016-cı İLİN APREL MÜHARİBƏ ŞƏRAİTİNİ ARAŞDIRAN PARLAMENT QRUPU YARADIR...

■ səh. 5 ■

Fuad Abbasovun müəmmalı həbsi, deportasiya təhlükəsi və Rusiyada Frenkin yeni azərbaycanlılar təşkilatının sükutu...

■ səh. 4 ■

Qondarma "DQR prezidentliyi" uğrunda Paşinyanın və Köçəryanın namizədləri mübarizəyə başlayır...

■ səh. 6 ■

ABŞ-İran danışıqları çətin çıxılası dalana girdi, əsl savaş hazırlıqları başladı, İran və İraqdan köç xəbərləri gəlir...

■ səh. 8 ■

"Amerikanın səsi"ndə Cəmil Həsənlinin siyasi reklamının pərdəarxası...

■ səh. 5 ■

Türkiyə həkimləri Azərbaycan xəstəxanalarından gedir? - "Ege" Hospitaldan reaksiya...

■ səh. 13 ■

Naxçıvanın da yaradıcılıq ittifaqları dövlətdən yardım aldı...

■ səh. 15 ■

Azərbaycanda ilk incəsənət əsərləri auksionu...

■ səh. 15 ■



■ səh. 7 ■

## Paşinyanın tam siyasi fiaskosunun başlanğıcı - Köçəryan qurtuldu, əhali məhkəmələrə gəlmədi, paşinyançı deputatlar Saakyana minnətçi düşdü...



«Azərbaycanın 10 min əsgəri gecə hücumunu dəf edərək Ermənistan ordusunun arxasına keçə bildi»

■ səh. 9 ■

Kılıçdaroğlunun toxunulmazlığını almaq və İmamoğlunu İstanbul seçkilərinə buraxmamaq - deyilənlər doğrulsa...

■ səh. 10 ■




«Unibank»ın dollar kreditli müştəriləri aldatmasına aid daha bir fakt...

■ səh. 11 ■

■ səh. 3 ■

Radikal müxalifət Britaniyanın futbol və Avroittifaqın ərazi bütövlüyü barədə yanlış xəbərlərinə niyə susdu...



■ səh. 7 ■

Paşinyanın uydurma "DQR"lə Azərbaycan torpaqları üzərində alver oyunu...



■ səh. 12 ■

Azərbaycan DİN-in dünyaya açılan 152 telefon nömrəsi insan alveri ilə mübarizəni xeyli gücləndirəcək



■ səh. 12 ■

Azərbaycanda dustaqlara hansı sənətlər öyrədilir...



■ səh. 14 ■

"Orucluğun neçənci günüdür" mübahisələri başlayıb...



## Azərbaycan və Rusiya Elmlər Akademiyaları arasında qırılmış əlaqələr bərpa olunur

**Prezident İlham Əliyev mayın 21-də Rusiya Federasiyası Elmlər Akademiyasının prezidenti Aleksandr Sergeyevi qəbul edib.**

Qəbula görə minnətdarlığını bildirən Aleksandr Sergeyev Azərbaycan Prezidenti ilə bu görüşün onun üçün və ümumilikdə Rusiya Elmlər Akademiyası üçün böyük önəm daşıdığını deyib. Əvvəlki illərdə Elmlər akademiyaları arasında birgə səmərəli əməkdaşlığın həyata keçirildiyini qeyd edən Aleksandr Sergeyev sonrakı dövrlərdə elmi əlaqələrin qırıldığını vurğulayaraq, indi bu əlaqələrin yenidən bərpa edilməsinin zəruriliyini bildirib və ölkəmizə səfərinin əsas məqsədinin bundan ibarət olduğunu diqqətə çatdırıb.

Dövlət başçısı elm sahəsində əvvəllər mövcud olan ənənəvi əlaqələrin hazırkı dövr və gələcəkdə əməkdaşlığın inkişaf etdirilməsi üçün yaxşı əsas yaratdığını bildirərək, Rusiya elminin son illər əldə etdiyi nailiyyətlərə toxunub və ölkələrimizin gələcək elmi əməkdaşlığı üçün yaxşı potensialın olduğunu vurğulayıb. Azərbaycanla Rusiya arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi və digər sahələrdə uğurlu inkişafının elm sahəsində də əlaqələrin genişləndirilməsi və birgə layihələrin həyata keçirilməsi üçün yaxşı imkan yaratdığını deyən dövlət başçısı Rusiya Elmlər Akademiyasının prezidenti Aleksandr Sergeyevin Azərbaycana səfərinin ölkələrimiz arasında elmi əməkdaşlığın inkişafı və bu sahədə konkret addımların atılması işinə öz töhfəsini verəcəyinə əminliyini ifadə edib.

**Söhbət zamanı əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.**

## Qara dənizdə Türkiyə gəmisi rumınlar tərəfindən atəşə tutuldu - yaralılar var

**Qara dənizdə balıqçı gəmisi atəşə tutulub. "Trend"in məlumatına görə, gəmi Rumıniya Sahil Mühafizə Xidməti tərəfindən atəşə tutulub.**

İnsident nəticəsində Türkiyəyə məxsus gəminin 3 ekipaj üzvünün yaralandığı bildirilir.

Gəminin 8 nəfərdən ibarət ekipaj üzvü Rumıniya Sahil Mühafizə Xidməti tərəfindən saxlandıqdan sonra gəminin batırıldığı deyilir. Türkiyə tərəfindən hadisə ilə bağlı hələ rəsmi açıqlama verilməyib.

# Prezident İlham Əliyev yeni dəmir yolu ilə Bakıya qədər gəldi



**Mayın 21-də Prezident İlham Əliyev Sabunçu dəmir yolu vağzal kompleksinin açılışında iştirak edib, yeni inşa edilən Bakı sərnişin - Sabunçu dəmir yolu xətti üzrə görülən işlərlə tanış olub.**

Dövlət başçısı əvvəlcə qəsəbə sakinləri ilə görüşüb söhbət edib və Sabunçu dəmir yolu vağzalının rəmzi açılışını bildirən lenti kəsib.

Sonra Prezident Bakı sərnişin - Sabunçu dəmir yolu xətti üzrə görülən işlərlə tanış olmaq üçün qatarla Bakı Dəmir Yolu Vağzalına yola düşüb.

Bakıxanov, Koroğlu və Keşlə dayanacaqlarında yaradılan şəraitlə tanış olan Prezident İlham Əliyevin görülən işlərlə tanışlığı Bakı Dəmir Yolu Vağzalında başa çatıb. Sonda xatirə şəkli çəkdirilib.

# Bakıdakı məşhur "Tarqovı"ya qarşı təxribatçı xəbər...

**Bakı Şəhər İcra Hakimiyyəti mayın 25-dən 31-nə qədər "Tarqovı"ya yerli sakinlərin buraxılmayacağı ilə bağlı yayılan xəbərə münasibət bildirib.**

Baki-xeber.com xəbər verir ki, Şəhər İcra Hakimiyyətinin Mətbuat Xidmətinin rəhbəri İsrafil Kərimov "Qafqazinfo"ya açıqlamasında da bu barədə mətbuatda verilən məlumatların həqiqətə uyğun olmadığını və hər hansı məhdudiyyət tətbiq edilmədiyini deyib:

"Belə məlumatlar təxribat xarakteri daşıyır. Futbol kütlələrin baxdığı, azarkeşlik etdiyi oyundur. Onu hamı sevir və hər hansı məhdudiyyət yolverilməzdir, əksinə, həmin gün şəhərdə bayram əhval-ruhiyyəsi hökm sürəcək, müxtəlif tədbirlər keçiriləcək" - İ.Kərimov deyib.



DEMOKRATİK, MÜSTƏQİL QƏZET
BAKI XƏBƏR
www.baki-xeber.com
Həftədə 5 dəfə çıxır
Qəzet 2003-cü ildən nəşr olunur

**«Bakı-Xəbər» qəzetini hər səhər evinizdə və iş yerinizdə əldə etməyin ən asan yolu -**

**Abunə!**

Abunə istəyinizdən asılı olaraq 1-12 aylıq müddətə yazılır.

1 aylıq abunə qiyməti - **8 AZN**
3 aylıq abunə qiyməti - **24 AZN**

**Abunə yazılışı aşağıdakı mətbuat yayım şirkətləri vasitəsilə həyata keçirilir:**

**QAYA - telefonlar:** (012) 564-63-45; 564-48-96
**Azərmətbuatyayım:** (012) 441-19-91; 440-27-85; 440-39-83
**Press İnform:** (012) 498-00-80; (055) 315-60-02

# Dövlət Gömrük Komitəsi işdən çıxarıldığı deyilən Rəşad Babayevlə bağlı daha dəqiq məlumat yaydı...




**DGK Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsindən "Bakı Xəbər"ə verilən məlumatda deyilir ki, Dövlət Gömrük Komitəsi Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsinin gömrük rəsmiləşdirilməsi zamanı qanunvericiliyin tələblərinin pozulması, buna görə gömrük əməkdaşlarının intizam məsuliyyətinə cəlb edilərək cəzalandırılması ilə bağlı məlumatı bir sıra media qurumları tərəfindən yanlış şərh olunub və həqiqətə uyğun olmayan məlumatlar yayımlanıb.**

Belə ki, bir sıra kütləvi informasiya vasitələri hər hansı fakta söykənmədən tutduğu vəzifədən azad edilən "Qırmızı Körpü" gömrük postu rəisinin Rəşad Babayev olduğuna dair iddiaların yer aldığı məlumatlar yayımlayıb.

Dövlət Gömrük Komitəsi bildirir ki, Rəşad Babayev, ümumiyyətlə "Qırmızı Körpü" gömrük postunun rəisi vəzifəsində çalışmayıb, Qərb Ərazi Baş Gömrük İdarəsinin rəis müavini işləyib, bir müddət sonra isə rotasiya qaydalarına uyğun olaraq Cənub Ərazi Baş Gömrük İdarəsinin rəis müavini vəzifəsinə təyin olunub və hazırda da həmin vəzifəni icra edir.

Dövlət Gömrük Komitəsi media qurumları və jurnalistlərə komitənin fəaliyyəti ilə bağlı informasiyaları yayımlayan, şərh edərkən rəsmi məlumatlara əsaslanmağı tövsiyə edir.

**Beynəlxalq Mətbuat Mərkəzində Azərbaycan Mətbuat Şurasının təşəbbüsü ilə "Azərbaycana baxış:siyasi maraqlar media müstəvisində" mövzusunda Dəyirmi masa keçirilib.**

# Mətbuat Şurasının "Azərbaycana baxış: siyasi maraqlar media müstəvisində" mövzusunda Dəyirmi masası Azərbaycanı məqsədli qaralayanlara yeni mesajlar verdi

Toplantını giriş sözü ilə açan MŞ sədri, Milli Məclisin deputatı Əflatun Amaşov bildirib ki, bir qayda olaraq, Azərbaycandakı bütün mötəbər toplantılar, idman yarışları vaxtı ölkəmizə münasibətdə mənfi rəy yaratmaq yolu seçilir. Eyni xoşagəlməz tendensiya yenə nəzərə çarpmaqdadır. Bu, mayın 29-da UEFA Avropa liqasının finalının Bakıda keçirilməsi ilə əlaqədardır. "Dünyanın bir sıra kütləvi informasiya vasitələrindəki təqdimatlarda insanlarda ölkəmizlə bağlı bir növ, qorxu yaradılır. Azərbaycanın imici barədə mənfi rəy formalaşdırılır", - deyən Ə.Amaşov Azərbaycanın media ictimaiyyətinin məsələyə adekvat münasibətinin vacibliyini önə çəkib və rəhbərlik etdiyi qurumun təşkil etdiyi toplantının məqsədinə bu baxımdan aydınlıq gətirib.

Çıxış edənlərdən MŞ İdarə Heyətinin üzvləri - "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Hikmət Babaoğlu, Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli, "Teleqraf Holdinq"in rəhbəri Aynur Camalqızı, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə, "Bakı xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev, Azər Həsrət, həmçinin Şuranın sədr müavini Müşfiq Ələsgərli ölkəmizlə bağlı yaradılmış mənfi rəyi ümumən Azərbaycana qarşı aparılan informasiya siyasətinin tərkib hissəsi kimi dəyərləndiriblər. Onlar bildiriblər ki, ölkəmizdə aparıcı beynəlxalq şirkətlərin nümayəndəlikləri var və bu nümayəndəliklərdə dünyanın dörd yanından əcnəbilər çalışmaqdadırlar. İndiyədək bu şəxslərin heç biri ilə bağlı insidentin qeydə alınmadığı halda qərəzli fikirlərin gündəmə gətirilməsi məkrli mahiyyət daşıyır. Buna münasibətdə bütövlükdə Azərbaycan cəmiyyəti kimi, mediası da öz mövqeyini ortaya qoymalıdır. Çıxış edənlər həmçinin bildiriblər ki, beynəlxalq tədbirlərin, böyük idman yarışlarının təşkilində təcrübəyə malik Azərbaycan UEFA Avropa liqasının final oyununa da evsahibliyini layəqətli şəkildə həyata keçirəcək.




**Bu gün Azərbaycan dünya miqyasında söz sahibi olan ölkələrdən biri kimi tanınır. Bütün bunlar isə anti-Azərbaycan dairələri narahat edir. Postsovet ölkələri, habelə müstəqillik tarixi daha çox olan Avropanın bir sıra dövlətləri ilə müqayisədə Azərbaycanın əldə etdiyi uğurlar müəyyən bədxahları rahat buraxmır.**

# Radikal müxalifət Britaniyanın futbol və Avroittifaqın ərazi bütövlüyü barədə yanlış xəbərlərinə niyə susdu...

## Elçin Mirzəbəyli: "Radikal müxalifət zaman-zaman antimilli mövqedən çıxış edib"



*"Bu günə qədər olubmu ki, radikal müxalifət təmsilçiləri və onların xaricdə olan tör-töküntüləri Ermənistan..."*

Çünki Azərbaycanın qısa müddətdə bu uğurlara nail olmasını həzm edə bilmirlər. Ona görə də ölkəmizə qarşı yalan, şər, böhtan kampaniyaları təşkil edirlər. Onlar bu kimi tədbirlərdə "sapı özümüzdən olan baltalar"dan məharətlə istifadə edir və onlar vasitəsilə ölkəmizin imicinə zərbələr vurmağa çalışırlar.

O da məlumdur ki, bu günlərdə Azərbaycanla bağlı bir sıra həqiqətə uyğun olmayan fikirlər səsləndi. UEFA Avropa Liqasının 2019-cu il mayın 29-da Bakıda keçiriləcək final oyunu ərəfəsində Böyük Britaniya Xarici İşlər Nazirliyinin Azərbaycana aid yaydığı səyahət tövsiyələri reallığı özündə əks etdirmirdi. Çünki Azərbaycanda təhlükəsizliyin necə yüksək səviyyədə təmin olunması danılmaz reallıqdır.

Bununla belə, mayın 13-14-də Brüsseldə "Şərq tərəfdaşlığı"nın 10 illiyinə həsr olunan Yüksək Səviyyəli Konfrans keçirildi. Azərbaycan da həmin konfransda iştirak etdi. Sözügedən tədbir gedən zamanı erməni mətbuatı belə bir yalan informasiya yaydı ki, guya Avropa İttifaqı Azərbaycanın ərazi bütövlüyünü tanımadığına görə Azərbaycan qurumla strateji tərəfdaşlıq sazişini imzalamayıb. Dərhal Azərbaycan tərəfi bunu təkzib etdi. Eyni zamanda, məlum oldu ki, Brüsseldə keçirilən tədbirdə Avropa İttifaqı ilə Azərbaycan arasında sazişin imzalanması əvvəlcədən nəzərdə tutulmayıb. Bu sənəd üzərində hələ iş gedir.

Ən maraqlısı isə odur ki, yuxarıda sadalanan hər iki sözügedən məsələyə Azərbaycandakı radikal müxalifət hansısa formada reaksiya vermədi. Buna öz etirazını bildirmədi. Halbuki, bütün bunlar Azərbaycanın dövlət və milli maraqları ilə bağlı olan məsələlər idi. Ancaq radikal müxalifət bunun üzərindən sükutla keçdi və bunu görməzdən gəldi. O baxımdan, radikal müxalifətin bu cür antimilli mövqe sərgiləməsini ekspertlər necə dəyərləndirirlər?

**Məsələyə münasibət bildirən BAXCP-nin sədr müavini Elçin Mirzəbəylinin sözlərinə görə, radikal müxalifət zaman-zaman antimilli mövqedən çıxış edib:** "Son hadisələrə münasibətdə bunu bir daha sübut etdilər. O üzdən, həmin qüvvələrin son baş verənlərə heç bir reaksiya verməməsinə, bir növ, təəccüblənməmdim. Onlar fəaliyyətdə olduğu ilk dövrlərdən Azərbaycana düşmən kəsilən qüvvələrə xidmət ediblər. Belə qüvvələrdən yararlanmağa çalışıblar.

2001-ci ildə Ki-Uest danışıqları ərəfəsində Azərbaycanın ərazi bütövlüyü ilə bağlı mitinq keçirilməli idi. Əli Kərimli xarici səfirliklərdən birindən aldığı sifariş əsasında mitinqin təxirə salınmasına qərar verib. Bununla bağlı vaxtilə onun şöbə müdiri olan Qorxmaz Əsgərovun da yazısı var. Həmin yazıda onların Azərbaycana qarşı haqsızlıqları öz əksini tapıb. İndiyə qədər də bu siyasət davam edir. Bu günə qədər olubmu ki, radikal müxalifət təmsilçiləri və onların xaricdə olan tör-töküntüləri Ermənistan səfirliyi və yaxud da hansısa beynəlxalq qurum qarşısında ölkəmizin ərazi bütövlüyü ilə bağlı aksiya keçirsinlər? Təbii ki, belə bir hal olmayıb. Bu, Azərbaycanda kimsəyə sirr deyil. Çünki eyni mənbədən maliyyələşir bu insanlar. Bu baxımdan, radikal müxalifət təmsilçiləri Azərbaycan siyasətinin itirilmiş insanlarıdır. Dünyanın hər yerində dövlətçilik və milli maraqlarla bağlı məsələdə hansı mövqedə dayanmasından asılı olmayaraq, müxalifət partiyaları vahid bir mövqe ortaya qoyurlar. Ancaq təəssüflər olsun ki, Azərbaycanda radikal müxalifət barədə bunu demək olmur. Bu da onu deməyə əsas verir ki, həmin adamlar Azərbaycanda yaşasalar da, özlərini ölkə vətəndaşı kimi hiss etmirlər. Çünki onlar ayrı-ayrı qüvvələrin Azərbaycandakı nüfuz vəkilləridir. Ona görə də son baş verənləri radikal müxalifət görməzdən gəldi".

***Vidadi ORDAHALLI***

# Fuad Abbasovun müəmmalı həbsi, deportasiya təhlükəsi və Rusiyada Frenkin yeni azərbaycanlılar təşkilatının sükutu...

**Rusiyada yaşayan və fəaliyyət göstərən jurnalist Fuad Abbasovun müəmmalı həbsi və ona verilən işgəncə anının video, fotolarının sosial şəbəkələrdə yayılması ölkəmizdə və onun hüdudları kənarında ciddi etirazla qarşılanıb. Qeyd edək ki, F.Abbasov çox vətənpərvər jurnalist kimi tanınır.**

Rusiya ilə Türkiyə arasındakı münasibətlər gərginləşəndə Rusiyanın tanınmış televiziya kanallarında təşkil edilən tokşoularda prinsipial mövqe ortaya qoyaraq, Türkiyə və ölkəmizin maraqlarını müdafiə edib. Moskvada yaradılan çeçen-azərbaycanlı qarşıdurması zamanı da həmkarımız böyük barışdırıcı missiyanı uğurla həyata keçirə bildi.

Sonra Fuadın adı Füzuli Məmmədovun yaratdığı yeni qurumun ətrafındakı proseslərdə hallanmağa başladı. Fuad prosesi sərt tənqid edirdi. Bundan sonra F.Məmmədovun Azərbaycanda və Rusiyada olan yaxınları jurnalistin mövqeyinin səhv olduğunu bəyan etdilər, hətta F.Abbasovun üzərinə total hücumlar təşkil edildi. Jurnalistin adı ermənipərəstlikdə, FETÖ terror təşkilatı ilə əlaqədə hallandırıldı. F.Məmmədovun özü də Fuadla bağlı olduqca sərt açıqlama verdi. Bundan sonra belə bir məlumat yayıldı ki, F.Məmmədovla Fuad arasında barışıq əldə edilib. Ancaq buna aid hər hansı bir dəlil ortaya qoyulmadı. F.Abbasovun məhz bu hadisələrin fonunda Rusiyada həbs edilməsi və vəhşi rəftara məruz qalmasında bizim diasporumuzun ona qarşı sərgilədiyi mövqenin da rolunun olduğu qənaətinə gələnlər də az deyil. Son iki gün ərzində biz bu mövqeni bir sıra tanınmış şəxslərin dilindən eşidirik. F.Abbasovun həbs edilmə anı və onunla Rusiyanın güc qurumlarının rəftarını ölkəmizə edilən hörmətsizlik kimi dəyərləndirənlər də az deyil. Doğrudan da Azərbaycan vətəndaşının, Azərbaycan jurnalistinin bu cür aşağılanaraq terrorist, mafiya başçısı kimi həbs edilməsi və sonra şəkillərinin çəkilib sosial şəbəkələrdə paylaşılması bütün Azərbaycan xalqına qarşı həqarətdir.




F.Abbasova qarşı münasibətlər müxtəlif ola bilər, amma bu, tək Fuadın yox, Azərbaycan vətəndaşının dramıdır. Bununla şimal qonşumuz Azərbaycana qarşı növbəti saygısızlığını edib. F.Abbasovla bağlı vəziyyəti şərh edən onun vəkili Elman Paşayevin sözlərinə görə, o, təcridxanada saxlanan jurnalistlə görüşüb. F.Abbasov vəkilinə bildirib ki, onu mayın 16-da çox ağır şəkildə, qəddarcasına döyüblər: "O internetə qoyulan fotolar düzgündür. F.Abbasov mayın 16-da çox sərt şəkildə döyülüb. Küçədə hüquq-mühafizə orqanı əməkdaşları onu qəddarcasına döyüblər. Onlardan ikisi jurnalisti döyüb, biri isə bu hadisənin video və fotosunu çəkib. O fotoların internetdə yayılmasının əsas səbəbi isə sifarişçiyə "missiyanın" yerinə yetirildiyini sübut etmək olub. Adətən sifariş verənlər sübut istəyirlər ki, sifariş hansı formada yerinə yetirilib. Mən kriminalistəm, bu detalları bilirəm. Məqsəd o olub ki, sifarişçiyə çatdırsınlar ki, F.Abbasovu sındırdıq".

E.Paşayev bildirib ki, döyəndən sonra F.Abbasovun qoluna qandal geyindirilib. Onun sözlərinə görə, administrativ işlər üzrə heç kimin qoluna qandal vurula bilməz: "F.Abbasova deyilməyib ki, bu addım niyə atılır. Mayın 28-də F.Abbasov deportasiya edilməlidir. Amma ondan da tez ola bilər. Onu öncə küçədə, daha sonra isə polis idarəsində döyüblər. Məqsəd o olub ki, onu sındırsınlar və bunu yaysınlar".

Vəkilin sözlərinə görə, F.Abbasov sifarişçilərin kimliyi ilə bağlı versiyalarını ona deyib. Rusiyada yaşayan həmyerlimiz hesab edir ki, sifarişçi ya erməni lobbisi, ya da Rusiyada yaşayan Azərbaycan diaspor təşkilatının rəhbərlərindən biridir. E.Paşayevin fikrincə, F.Abbasovun deportasiyası üçün heç bir əsas, səbəb yoxdur: "Mən vəkillik fəaliyyətim boyunca belə biabırçılıq görməmişəm. Azərbaycan rəsmi səviyyədə buna reaksiya verməlidir".

Maraqlıdır ki, Rusiyada yaşayan bir sıra diaspor fəalları və təşkilatları Fuadın həbsi ilə bağlı narahatlıq ifadə edən bəyanatlar versələr də, F.Məmmədovun yeni yaratdığı təşkilatın bu məsələyə münasibəti ortada yoxdur. Bu susqunluğu nə ilə izah etmək olar?

F.Məmmədovun rəhbərliyi altında yaradılan yeni diaspor təşkilatının idarə heyətinin üzvü, Rusiyada yaşayan diaspor fəalı Mirkazım Seyidov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, onlarla F.Abbasov arasında fakir ayrılığı həqiqətən olub: "Bu jurnalistə əvvəl mənim də münasibətim yaxşıydı. Onu əsl vətənpərvər kimi tanıyırdım. Lakin sonra gördüm ki, bu adam sifariş icra edir. Bizim yeni yaratdığımız təşkilatla bağlı proseslərdə gördüm ki, obyektiv adam deyil. Biz şəxsən onu qurultaya dəvət etmişdik. Amma gəlmədi və sonra guya onu tədbirə buraxmadığımız haqda məlumatlar yaydı. Sonra tərəflər arasında barışıq oldu. Həmin məclisdə hətta mənim özüm də Fuaddan üzr istədim ki, onu sərt tənqid etmişəm. Bir-birimizi bağışladıq. Amma həmin proseslərdən sonra o yenə gedib bizə qarşı fəaliyyət apardı. Bu baxımdan da onu aydın fəaliyyəti olmayan şəxs kimi xarakterizə edərdim. Onun həbsi ilə bağlı müxtəlif versiyalar danışılır. Məndə olan informasiyaya görə, onun həbsinin bu qalmaqalla heç bir əlaqəsi yoxdur. Onun saxlanması "Fud Siti" deyilən bazarda apardığı müəmmalı pul köçürmələri ilə əlaqəlidir. Bununla bağlı çoxlu sayda informasiya eşitmişəm. Deyilir ki, haralarasa külli miqdarda pul köçürüb. Bir də FETÖ ilə əlaqəsi barədə danışılır. Burada başqa səbəb görmürəm. Ola bilər ki, onun həbsinin kökündə müəyyən diaspor qurumları ilə aralarında olan qalmaqalın da rolu olsun. Çünki bu gün eşitdim ki, hətta bir sıra diaspor təşkilatlarımız Rusiyanın əlaqədar qurumlarına rəsmi şəkildə müraciət ediblər ki, Fuadla bağlı ölçü götürülsün. Bu gün mənə Çelyabinskdən zəng edib dedilər".

M.Seyidovun sözlərinə görə, Fuadın həbsinin ən real motivi qanunsuz pul mübadiləsi ilə bağlıdır: "F.Məmmədov ona kömək edir. Şəxsən mən bunu Füzuli müəllimin öz dilindən eşitmişəm. Bununla F.Məmmədov özünün alovlu vətənpərvər olduğunu sübut etdi. O, F.Abbasovun azad olunması üçün bütün addımları atmağa hazırdır və bunu edəcək də. Bu fikirləri mən şəxsən onun özünün dilindən eşitmişəm".

*Məhəmmədəli QƏRİBLİ*

"Ermənistanda aprel döyüşlərinin detallarının araşdırılması üçün parlament komissiyasının yaradılması dövrüdür". Bu sözləri Ermənistan Baş naziri Nikol Paşinyan deyib. Onun sözlərinə görə, aprel hadisələrinin səbəblərini araşdırmaq və ictimaiyyəti maraqlandıran bir sıra məsələlərə cavab tapmaq üçün komissiya yaradılmalıdır.

# Ermənistan 2016-cı ilin aprel müharibə şəraitini araşdıran parlament qrupu yaradır...




*"Çoxsaylı general var idi ki, hər şeyin yaxşı olduğunu deyirdilər, amma tam əksinə oldu və onlar çox pis durumdadır"*

## *Üzeyir Cəfərov: "Ermənistanın aprel döyüşləri ilə bağlı parlament komissiyası yaratması nəyisə dəyişməyəcək"*

O bildirib ki, 2016-cı ilin aprel döyüşlərinin detallarının araşdırılması üzrə erməni parlamentinin istintaq komissiyasının yaradılması və hamını narahat edən bir sıra məsələlərə aydınlıq gətirilməsinin zamanı çatıb. Paşinyan bu məsələyə yekun olaraq qeyd edib ki, Ermənistanla Qarabağ separatçıları arasında düşmənçilik toxumu səpən bütün qüvvələri rədd etməyə çağırır.

Məlumat üçün qeyd edək ki, 2016-cı il aprelin əvvəllərində baş verən döyüşlərdən sonra Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyi, Goranboy rayonunun Gülüstan kəndi və Tərtər rayonunun Madagiz kəndi istiqamətində bəzi mövqelər düşməndən azad olunub. Erməni silahlı qüvvələri bu döyüşlərdə 320-dən artıq hərbçisini itirib və 500-dən artıq hərbi qulluqçusu isə yaralanıb. Qarşı tərəfin 30-dək tankı və digər zirehli texnikası, 25-dən artıq artilleriya qurğusu sıradan çıxarılıb.

Bütövlükdə, Ermənistan rəhbərliyinin sözügedən məsələ ilə bağlı komissiya yaratmaqda məqsədi nədir? Bununla nəyə nail ola biləcək?

**Məsələyə münasibət bildirən hərbi ekspert Üzeyir Cəfərovun sözlərinə görə, bunda Paşinyanın müəyyən məqsədləri var:** "Ermənistanda siyasi vəziyyət günü-gündən ağırlaşır. Çünki Paşinyan çıxılmaz durumdadır. Əvvəl fikirləşirdi ki, hakimiyyətdə olduğu dövrdə çox rahatlıqla istədiyinə nail olacaq. Ancaq bu günlərdə bütün dünyaya sübut etdi ki, hakimiyyəti idarə etmək qüdrətində deyil. Təkcə Moskvadan gələn göstərişlə, onun iradəsinin əksinə olaraq, Köçəryanın həbsdən azad olunması onun olmayan ağlını da əlindən aldı. Dərhal göstəriş verdi ki, məhkəmələrin fəaliyyətini tormozlayın. Bunun özü bir daha bütün dünyaya bir mesaj idi ki, Ermənistanda heç bir qayda-qanun işləmir. Bunlar sivil yaşam gücündə deyillər. Ermənistanın aprel döyüşləri ilə bağlı parlament komissiyası yaratması nəyisə dəyişməyəcək. Sadəcə, Paşinyan bununla rəqiblərini təzyiq altında saxlamaq istəyir. Ermənistanda 2016-cı ilin aprelində prezident olan Sarkisyan artıq hakimiyyətdə deyil. Müdafiə naziri olan Ohanyan da həmçinin. Çoxsaylı general var idi ki, hər şeyin yaxşı olduğunu deyirdilər, amma tam əksinə oldu və onlar çox pis durumdadır.

Hər halda, Paşinyan nə qədər çox səhv buraxsa, bu bizim xeyrimizədir. Görünən odur ki, bu insan hələ də küçə psixologiyasından çıxa bilmir. Bunun da Ermənistan üçün çox ciddi fəsadları olacaq".

***Vidadi ORDAHALLI***

---

Azərbaycanda fəaliyyət göstərən bəzi xarici media nümunələrinin fəaliyyətində ölkəmizə qarşı qərəzli mövqeni daim müşahidə etmişik. Əsasən də ABŞ dövlətinin büdcəsindən maliyyələşdirilən "Azadlıq", "Amerikanın səsi" kimi radiostansiyaların fəaliyyətində belə hallara daha çox rast gəlinir.

# "Amerikanın səsi"ndə Cəmil Həsənlinin siyasi reklamının pərdəarxası...




*"Qanunla qadağan edilən fəaliyyətdir"*

## *Azər Həsrət: "Bu, ABŞ kimi ölkənin birbaşa Azərbaycanın daxilindəki siyasi proseslərə açıq şəkildə müdaxiləsindən xəbər verir"*

Yəqin bu cür fəaliyyətin nəticəsidir ki, həmin radiaolara milli tezliklərimiz vasitəsilə yayılmağa qadağa qoyuldu. Buna baxmayaraq, onlar ölkəmizlə bağlı məsələlərin işıqlandırılması və həmin məlumatların sosial şəbəkələrdəki platformaları tərəfindən yayılması ilə əlaqədar məsələdə eyniadlı saytlarının imkanlarından geniş istifadə edirlər. Həmin saytlar həm də Azərbaycan dilində xəbərlər təqdim edirlər.

"Amerikanın səsi" radiosunun rəsmi saytında yayılan məlumatla tanış olanda qabağımıza maraqlı mənzərə çıxdı. Bunu bir müddətdir müşahidə edirik ki, oradan istənilən xəbəri açanda reklam baneri kimi ya Əli Kərimli, ya da Cəmil Həsənliyə aid material çıxır. Reklam elə yerləşdirilir ki, oxucu onu açmaqda maraqlı olur. Təbii ki, istənilən media qurumu deyə bilər ki, onun özünün reklam siyasəti var. Amma bu heç də maddi qazanc gətirə bilən bir sövdələşməyə oxşamır. Ortada siyasi maraqların üstüstə düşdüyü məqam nəzərə çarpır. Məsələn, Cəmil Həsənliyə aid material may ayının 14-dən həmin banerdədir. Bu məsələdə hiss olunur ki, radio özünə aid olan özəl materialları banerə çıxarır. Maraqlıdır ki, həmin materialların içində Cəmil Həsənlinin səsləndirdiyi fikirlərdən daha çox oxuna biləcəyinin olduğu halda, niyə Milli Şura sədrinin reklam baneri bir həftədir oxucuların gözünə girməlidir? Radionun C.Həsənliyə bəslədiyi bu xüsusi simpatiyanın arxasında nə dura bilər?

**Media eksperti Azər Həsrət "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, sözügedən media nümunələri balanslı informasiya təqdimatı ilə bağlı məsələdə uduzublar, "sinifdə qalıblar":** "Bilirsiniz ki, "Azadlq" və "Amerikanın səsi" radioları İkinci Dünya Müharibəsindən sonra yaradılıb. "Soyuq müharibə" dönəmində yaradılan həmin radioların əsas missiyası Şərqi Avropa və SSRİ-yə yönəlik təbliğatın aparılması idi. Belə profilli radioların tərəfsizliyindən danışmaq yersizdir. Çünki, konkret olaraq, hansısa dövlətin maraqlarına xidmət ediblər. Orada konkret şəxslərin və siyasi fiqurların reklam olunmasına gəldikdə isə, onların belə hüququ yoxdur. Onlar reklamdan gəlir əldə etmirlər. Onların özləri belə qaydaları müəyyən ediblər. Radikal mövqeli şəxslərin həmin saytlarda təmtəraqla reklam olunması ABŞ kimi ölkənin birbaşa Azərbaycanın daxilindəki siyasi proseslərə açıq şəkildə müdaxiləsindən xəbər verir. ABŞ bununla ölkənin iç siyasətində tərəf tutmuş olur. Bu isə ABŞ-la Azərbaycan arasındakı qarşılıqlı anlaşma, qarşılıqlı hörmət və bir-birinin hüquqlarına sayğı siyasətilə uzlaşmır, bununla ziddiyyət təşkil edir. Azərbaycan ABŞ daxilindəki siyasi proseslərə bu şəkildə müdaxilə etmirsə, bu balansı qorumağa rəsmi Vaşinqton da borcludur. Biz onların hansısa siyasi fiqurları ilə bağlı xüsusi reklam siyasəti aparmırıq. ABŞ-ın bu siyasəti Azərbaycan dövlətinin diqqətini cəlb etməli və bizim XİN bununla bağlı ABŞ-a müvafiq nota ilə müraciət etməlidir.

Biz isə media nümayəndələri olaraq Azərbaycan Mətbuat Şurasının timsalında məhz bu radiolara media etikasının pozulması ilə bağlı fikirlərimizi göndərməliyik. Adamlar görür ki, bizdən səs çıxmır, ona görə də istədikləri kimi fəaliyyət göstərirlər. Bunun bir adı var: siyasi platformalarda yer alıb, hansısa siyasi rəqibə xaricdən açıq dəstək vermək. Bu da qanunla qadağan edilən fəaliyyətdir".

***Məhəmmədəli QƏRİBLİ***

# Qondarma "DQR prezidentliyi" uğrunda Paşinyanın və Köçəryanın namizədləri mübarizəyə başlayır...

**Məlum olduğu kimi, bu günlərdə İrəvan məhkəməsi eks-prezident Robert Köçəryanı Dağlıq Qarabağdakı separatçı rejimin "prezidentinin" müraciəti əsasında zaminə buraxıb. Bundan qəzəblənən baş nazir Nikol Paşinyan Ermənistanda inqilabın "ikinci mərhələsinin" başladığını elan edib və məhkəmələrə əl gəzdiriləcəyini bildirib. Bu fonda "1-in.am" saytı Ermənistanda hadisələrin bundan sonra hansı istiqamətdə cərəyan edəcəyinə dair maraqlı yazı dərc edib.**

Qeyd olunur ki, Ermənistanda hadisələrin inkişaf axarı burada ziddiyyət və qarşıdurmaların hələ yaxın perspektivdə sona çatmayacağını göstərir: "Baş nazir Nikol Paşinyan məhkəmənin Robert Köçəryan haqda qərarına sərt reaksiya verməklə Ermənistan inqilabının ikinci, ən önəmli mərhələsinə start verildiyini bildirib. Görünür, baş nazir unudub ki, inqilabın ikinci mərhələsinin başlanmasına başqa xüsusda artıq start verib, hər halda bizə dövlət statistika göstəricilərinə görə gerçəkliyə çevrilməkdən uzaq olan iqtisadi inqilab vəd edilib. Hər necə olsa da, mövzunun özünə dönək və qeyd edək ki, kənar adam Paşinyanın bəyanatları ilə tanış olarsa, təəssürat doğa bilər ki, bunun müəllifi ölkənin baş naziri deyil, inqilaba hazırlaşan müxalifət lideridir.

Prinsipcə, cəmiyyət məhkəmə-hüquq sistemini islah edə biləcək istənilən təşəbbüs uğrunda çıxış edir. Hətta bu xeyli əvvəllər, inqilabın qələbəsindən bir an sonra edilməliydi, o biri yandan, istənilən təşəbbüsün leqal - qanun çərçivəsində olması çox önəmlidir. Paşinyanın qalmaqallı mövqeyi bu planda nikbinlik üçün heç bir özəl əsas yaratmır, çünki icra hakimiyyətinin başçısı açıqca hakimiyyətin başqa qanadını bloklamağa gedir.

İndiki anda məlumatımız son dərəcə məhduddur. Bəllidir ki, Paşinyan səhər məhkəmə qurumlarının başçıları ilə görüşüb, Konstitusiya Məhkəməsinin sədri Hagik Arutyunyan isə keçmiş DİİHB-də (ATƏT-in Demokratik İnstitutlar və İnsan Haqları Bürosu) toplantı keçirib. Paşinyanın qalmaqallı bəyanatından sonra məhkəmə sistemində müəyyən xof var. Bu fakt Hagik Arutyunyanın və AMŞnin (Ali Məhkəmə Şurası) başqa üzvlərinin məzmununa müəlliflərin aşkar xofundan kölgə düşən qısa müsahibəsindən bəlli idi.

Bununla belə, DİİHB yığcam rəsmi bəyanat yayıb. Məlumatda qeyd olunur ki, Şura qeydə alıb - mayın 20-də Ermənistan baş nazirinin yanında məhkəmə-hüquq islahatları probleminə həsr edilən müşavirə təyin olunub. Şura göstərilən müşavirəni keçirmək və Ali Məhkəmə Şurası sədrinin də ona qatılacağının təsdiqlənməsi nəzərə alınmaqla nəticəyə gəlib ki, yaranmış durumla bağlı mövqeyi toplantıdan sonra çağırılan müşavirədə tam ifadə etmək gərəkdir. Eyni zamanda, DİİHB məhkəmələrin normal işinin pozulduğunu qəbuledilməz sayaraq məhkəmə hakimiyyətinin bütün hakim və işçilərini son dərəcə təmkinli olmağa, yalnız hüquq meydanında qalmağa çağırıb. Qeyd etmək gərəkdir ki, ombudsman, parlament və parlamentdən kənar müxalifət əsasən baş nazir Nikol Paşinyanın qalmaqallı yazısı barədə bəyanatlarla çıxış edib.

Ermənistan prezidenti Armen Sarkisyan çağırışla çıxış edərək Ermənistan baş nazirinin məhkəmələrə giriş-çıxışı bağlamaq çağırışına bu şəkildə toxunub. Armen Sarkisyanın bəyanatı siyasi qiymət planında tərəfsizdir və daha çox ayıqlıq və dözümlülük göstərmək ismarıcını ehtiva edir. Deməli, heç kim bununla mübahisə etmir ki, Ermənistanda korrupsiyalaşmış, mahiyyətcə keçmiş cinayətkar-oliqarxik sistemin ələvəsi olan və bu gün inqilabi dəyərlərin kapitallaşması yolunda durmuş məhkəmə hakimiyyəti ilə işimiz var. Məhkəmə sisteminin islahatına istənilən təşəbbüs alqışlanır, ancaq birmənalıdır ki, bu, leqal yolla, Konstitusiyanın ruhu və nöqtəsinə, Ermənistanın götürdüyü beynəlxalq öhdəliklərə uyğun olmalıdır. Özəlliklə də Nikol Paşinyanın bloku parlament seçkilərində konstitusion çoxluğu əldə etdikdən sonra ötən il boyunca belə bir imkanı olduğuna görə.

Çaşqınlıq doğurur ki, Paşinyan öz komandasının qeyri-məhdud hakimiyyətindən yararlanmır və gərəksiz duyğusallığa qaçır, nəticədə parlament seçkilərinin nəticələrinə görə formalaşmış çoxluq və Ermənistanda qərarlaşmış qanuni hakimiyyət bütünlüklə legitimsizləşə bilər. Belə təhlükə var və bu bildirilməlidir, çünki görünüşdə təəssürat yaranır ki, hakimiyyət bölgüsü prinsipi pozulur və icra hakimiyyəti küçə vasitəsilə ədalət məhkəməsinə basqı göstərməyə çalışır.

Habelə aydındır ki, Robert Köçəryanın cinayət məsuliyyətinə çəkilməsində ümummilli konsensus var, amma bu məsələ yenə də leqal yolla tənzimlənməlidir, yəni hakimiyyət şərait yaratmalıdır ki, 1 mart işi üzrə normal məhkəmə istintaqı baş tutsun, Köçəryan da, başqaları da qanunun ruhuna və qəbul edilmiş prosedurlara uyğun layiqli cəza alsınlar. Əks halda 1 mart işi legitimsizləşə bilər, nəticədə Paşinyan istər-istəməz Köçəryanı siyasi dustağa və müxalifətin liderinə çevirər. Bu, Robert Köçəryan üçün çox dəyərli hədiyyə olar.

Ümumiyyətlə, təəssürat belədir ki, Nikol Paşinyan qeyri-məhdud hakimiyyəti necə gerçəkləşdirməyi bilmir, o biri yandan Köçəryanın azad edilməsilə onun üçün əlverişsiz kontekst, təəssüf ki, avantüraya bənzəyən və həm 1 mart işinin qanuniliyinə, həm də ölkənin nüfuzuna dönməz zərbə vura bilən təşəbbüslərlə aradan qaldırmağa çalışır. Ən nəhayətdə, cəmiyyətin qeydsiz-şərtsiz etimad mandatını əldə etmək və yardım haqda elə hey cəmiyyətə üz tutmaq olmaz. Bu, yumşaq deyilsə, yüngüllükdür. Belə yanaşma - daim xalqı gərginləşdirmək və bir-birinə qarşı qoymaq, nifrət mühitini qızışdırmaq qaçılmaz toqquşmalara gətirər. Cəmiyyəti keçmiş hakimiyyətə nifrət zəminində daim birləşdirmək, gərəkli islahatların - yeri gəlmişkən, hakimiyyət buna çağırılır - həyata keçirilməsini daim təxirə salmaq olmaz".



Bununla yanaşı, erməni mediası yazır ki, yaşananlar arasında ən təhlükəli məqam Qarabağ separatçıları ilə Ermənistan arasında münasibətlərin gərginləşməsidir. Bu durumda Paşinyan məqsədinə çatmaq üçün Qarabağda özünə ciddi dayaqlar yaratmağı düşünür. Məhz belə bir vaxtda Qarabağ separatçılarının keçmiş "baş naziri" Araik Arutyunyan separatçı rejimin rəhbərliyinə namizədliyini irəli sürüb. Araik Arutyunyan separatçılar arasında nüfuzlu şəxslərdən biri sayılır. O, bundan əvvəl qondarma rejimin "baş naziri" vəzifəsini tutub. Ermənistanda baş verən hakimiyyət dəyişikliyindən sonra Arutyunyan səssiz mövqe tutub və Paşinyan hökumətinə qarşı heç bir sərt ittiham səsləndirməyib. Məhz bu amilə görə sonradan hökumətə yaxın mətbuat Arutyunyanın qondarma rejimə Saakyanın yerinə rəhbər gətiriləcəyi haqqında məlumat yayıb.

Hazırkı separatçı rejim daxilində hakimiyyət uğrunda mübarizə Köçəryan və Paşinyanın dəstəklədiyi simalar arasında aparılır. Belə ki, bu mübarizədə Köçəryanın klanı Vitali Balasanyanı, Paşinyanın isə Arutyunyanı dəstəklədiyi iddia edilir. Məhz bu vəziyyətdə də separatçılarla Ermənistan hakimiyyəti arasında vəziyyət daha da gərginləşir.

***Tahir TAĞIYEV***

# Paşinyanın tam siyasi fiaskosunun başlanğıcı - Köçəryan qurtuldu, əhali məhkəmələrə gəlmədi, paşinyançı deputatlar Saakyana minnətçi düşdü...

**Ermənistanda sabiq prezident Robert Köçəryanın məhkəmə qərarı ilə həbsdən buraxılması ölkəni qarışdırıb. Baş nazir Nikol Paşinyan məhkəmənin Köçəryanla bağlı qərarına etiraz edərək insanları küçələrə səsləyib. Paşinyan inqilabın "ikinci mərhələsinin" başladığını elan edərək, tərəfdarlarını məhkəmələri blok etməyə çağırıb.**

Ancaq maraqlıdır ki, Paşinyanın bu çağırışına əhali ciddi reaksiya verməyib. Məhkəmələrin önünə çox az sayda adam toplaşıb.

Baş nazir Ermənistanın həbs edilmiş ikinci prezidenti R.Köçəryanın azad edilməsinə görə məhkəmələri ittiham edib və həmin hakimləri rədd edəcəyinə söz verib: "Ermənistanda formalaşan hökumətə və parlamentə xalqın etibarı tamdır. Son hadisələr Ermənistanda xalqın etibar etdiyi məhkəmə hakimiyyətinin olmadığını göstərir. Vətəndaşların haqlarını pozan qərarlar verən bütün hakimlər qovulmalı və ya istefaya getməlidir".

Paşinyan hazırkı məhkəmələrin əvvəlki korrupsiyalaşmış sistemin qalığı olduğunu deyib. Baş nazir məhkəmələrə bundan öncə öz dəyərlərinə qayıtmaq üçün bir il vaxt verildiyini, amma indi məhkəmələrə cərrahi müdaxilənin vaxtının gəlib çatdığını bildirib. Bu hadisə göstərdi ki, Paşinyan hələ də Ermənistanda hakimiyyətin bütün qollarına nəzarəti təmin edə bilməyib. Məsələn, Ermənistanın Prezidenti Baş nazirin çağırışı ilə razılaşmayıb. Ermənistan Prezidenti Armen Sarkisyan ölkədə məhkəmələrə girişin bağlanması ilə bağlı fövqəladə bəyanat verib. Dövlət başçısı insanları sakitləşməyə və konstitusiyaya hörmət etməyə çağırıb. O, məhkəmələrin də şəffaf fəaliyyət göstərməsinin vacib olduğunu deyib.

Ermənistanın Ombudsman Aparatının rəhbəri Arman Tatoyan isə bildirib ki, respublikanın bütün məhkəmələrinin giriş və çıxışlarına maneə törətmək barədə Ermənistan Baş nazirinin çağırışı və ya bəyanatı ölkənin hüquq sisteminin təhlükəsizliyi və sabitliyi üçün son dərəcə təhlükəlidir. Ombudsman N.Paşinyanın bu çağırışını məhkəmələrin işinə müdaxilə adlandırıb və onu ölkədə sabitliyi pozmaqda ittiham edib: "Mən Ermənistan vətəndaşlarını məhkəmələrin binalarını bloklayan tədbirlərdən çəkinməyə çağırıram, əks halda, hansısa bir gərginliyin baş verəcəyini istisna etməməliyik. Sosial şəbəkələrin monitorinqi göstərir ki, vətəndaşlar biri-birinə qarşı ən yüksək dərəcədə dözümsüzlük nümayiş etdirirlər, biri-birini təhqir və təhdid edirlər. Bu, ölkənin insan haqlarının müdafiəsi baxımından təhlükəlidir".

Qarışıqlıq zamanı Paşinyanla Böyük Kilikiya Evinin katolikosu I Aram arasında telefon danışığı olub. Paşinyan ölkədə baş verən son proseslərlə bağlı Aramı məlumatlandırıb. Bütün ermənilərin katolikosu II Qaregin də baş verən hadisələrlə bağlı məlumat yayıb. O, hər kəsi sakit olmağa və güc tətbiq etməməyə səsləyib.



Vəziyyət hətta o həddə çatıb ki, Paşinyanın rəhbəri olduğu "Mənim addımım" adlı deputat fraksiyasının üzvləri Bako Saakyanla görüşə təşəbbüs edib, sanki ona minnətçi düşüblər. Deputatların ardınca isə belə bir görüş təşəbbüsünü Paşinyanın özü irəli sürüb. Paşinyan Qarabağ separatçılarının rəhbəri B.Saakyanla görüşü zamanı ondan niyə Köçəryana zamin dayanmasının izahını tələb edib. Erməni KİV-i yazır ki, Paşinyanın izahat tələbinə Saakyan onların Qukasyanla davranışında heç bir siyasi məqsəd olmadığını və yalnız humanizm göstərdiklərini deməklə kifayətlənib. Baş verənləri Paşinyanın siyasi fiaskosunun başlanğıcı kimi qəbul etmək olarmı?

Politoloq Fikrət Sadıqovun sözlərinə görə, hiss olunur ki, Paşinyana qarşı ciddi müqavimət var: "Təkcə keçmiş hakimiyyət tərəfindən deyil, hüquq-mühafizə orqanları da, məhkəmələr də Paşinyana qarşı mövqedə dayanıblar. Bunun nəticəsidir ki, Köçəryan, nisbi də olsa, azadlıqdadır. Bu, özlüyündə o deməkdir ki, Paşinyana müəyyən qüvvələr tərəfindən müqavimət göstərilir. Demək olmaz ki, bu etirazlar yaxın müddətdə Paşinyanın hakimiyyətdən getməsinə səbəb ola bilər. Lakin reallıq odur ki, Baş nazirin zəifləmə mərhələsi artıq başlayıb. Onun hakimiyyətdən getməsi prosesinin bəlkə də ilkin addımlarıdır. Əgər əlləri qana bulanmış insanı açıq şəkildə məhkəmə zalından azadlığa buraxırlarsa, deməli, onlara xaricdən dəstək də var. Bu həqiqətdir. Paşinyan da bunu gözəl başa düşür. Ona görə də inqilabın yeni mərhələsindən söhbət açır. Düşünürəm ki, Ermənistanda daxili siyasət müəyyən dərəcədə mürəkkəbləşə bilər".

Digər politoloq Qabil Hüseynli isə hesab edir ki, hadisələrin hara doğru gedəcəyini söyləmək çətindir: "İndi etirazçılar Ali Məhkəmənin mühasirəyə alıblar. Amma bunlar Paşinyanın elektorat bazasına daxil olan adamlardır. Onlar, sadəcə olaraq, Köçəryanın yenidən həbsə qaytarılmasını tələb edirlər. Aydındır ki, Köçəryan azadlığa buraxılıbsa, Sarkisyan da hadisələrə kənardan dəstək verirsə, bütün Qarabağ klanı ayaq üstədir və Ermənistanda ciddi qarşıdurma prosesi gedir. Bu proseslərə müqavimət göstərilməzsə, böyüyüb toqquşmalara gətirib çıxara bilər. Gələcək bundan daha rəngarəng hadisələrin meydana çıxacağına şəhadət verir".

*Məhəmmədəli QƏRİBLİ*

---

# Paşinyanın uydurma "DQR"lə Azərbaycan torpaqları üzərində alver oyunu...

**Ermənistan Baş naziri Nikol Paşinyan bildirib ki, Qarabağdakı separatçı qurum və Ermənistan arasında düşmənçiliyi təşviq etməyə səy göstərən şəxslər var. Onun fikrincə, onların məqsədi keçmişdə yol verdikləri cinayəti ört-basdır etməkdən ibarətdir:**



*"Ermənistanın hazırkı hakimiyyəti ilə Dağlıq Qarabağdakı separatçı qurum arasında yetərincə ziddiyyət var"*

"Bu korrupsiyadan daha çox Qarabağdakı ermənilərin ziyan çəkməsinə baxmayaraq, bəzi məmurlar korrupsiya əlaqələrini tətbiq etməklə Qarabağda Ermənistana və şəxsən mənə qarşı təbliğat aparma işini davam etdirirlər".

Paşinyan qeyd edib ki, bütün bunları təhlil etməklə hələ parlament seçkilərində bəyan edib ki, xəyanətkar müharibənin təşviq edilməsi, hətta bəzi ərazilərin təhvil verilməsi və baş verənlərin məsuliyyətinin Ermənistan hakimiyyətinin üzərinə qoyulmasına aid uzunmüddətli məqsədlər gördüyünü deyib: "Mən bunu xəyanət hesab edirəm. Belə niyyətləri aradan qaldırmaq üçün bütün vasitələri həyata keçirəcəyəm".

### *Aydın Mirzəzadə: "Paşinyan bu məsələ ətrafında spekulyasiyalar edərək Ermənistan cəmiyyətinin diqqətini sosial məsələlərdən yayındırmaq istəyir"*

Bununla yanaşı, Paşinyan Ermənistanda baş verən bütün hadisələrin dərin və geridönməz olduğunu, bütün bunların müəllifinin ayrıca hansısa siyasi qüvvənin deyil, guya bütün erməni xalqının olduğunu qeyd edib.

O da məlumdur ki, Paşinyan hər zaman populist fikirlərlə gündəmdə qalmağa çalışır. Bununla özünü elə göstərmək istəyir ki, guya yalnız o, Ermənistanın üzləşdiyi problemləri həll edə bilər. Müxtəlif ağlagəlməz iddialar irəli sürür. Bu baxımdan onun bu iddiaları nə dərəcədə realdır?

**Məsələyə münasibət bildirən millət vəkili Aydın Mirzəzadənin sözlərinə görə, Paşinyanın məlum fikirləri sadəcə populizmdir:** "Hesab edirəm ki, o, çətin vəziyyətdə olduğunu dərk edərək, sadəcə, populizmlə məşğuldur. O yaxşı bilir ki, torpaqlar işğal olunub və Azərbaycan heç bir zaman ərazi bütövlüyü məsələsində geri çəkilməyəcək. Sadəcə, bu məsələ ətrafında spekulyasiyalar edərək Ermənistan cəmiyyətinin diqqətini sosial məsələlərdən yayındırmaq istəyir. Onu hakimiyyətə Ermənistan cəmiyyətinin sosial problemlərini həll etmək üçün gətirdilər. Bir il keçib, amma ortada heç bir nəticə yoxdur. İş yerləri, əməkhaqqı artmır, iqtisadi vəziyyət yaxşılaşmır. Demoqrafik problemlər dərinləşməkdədir. Paşinyan isə yersiz polemikalarla gündəmə gəlir. Guya Qarabağla bağlı ona qarşı oyun qurulub. Azərbaycan öz torpaqlarını işğaldan azad edəndə bunun icazəsini Ermənistandan, o cümlədən, Paşinyandan soruşmayacaq. Digər tərəfdən, Ermənistanın hazırkı hakimiyyəti ilə Dağlıq Qarabağdakı separatçı qurum arasında yetərincə ziddiyyət var. Bunu kiminsə üstünə atmaq mənasızdır.

**Ümumilikdə, Ermənistanda siyasi qruplar arasında mübarizə Azərbaycanı maraqlandırmır. Azərbaycanı ancaq işğal altındakı torpaqların azad olunması maraqlandırır. Bu istiqamətdə də səyləri ni artırır".**

*Vidadi ORDAHALLI*

**Bu gün dünyanın xüsusi diqqət mərkəzində yer alan Yaxın Şərqdə mürəkkəb vəziyyətin ABŞ və İran arasında artan gərginlik fonunda daha təhlükəli hala gəlməsi artıq qaçılmaz reallıq kimi çıxış edir. Çünki tərəflər arasında indi baş verənlər bunun potensial hərbi münaqişəyə çevrilə biləcəyini artıq aydın surətdə nümayiş etdirir.**

# ABŞ-İran danışıqları çətin çıxılası dalana girdi, əsl savaş hazırlıqları başladı, İran və İraqdan köç xəbərləri gəlir...




Baş verən bir çox hadisələr də artıq savaşa ciddi hazırlıq görüldüyünü göstərir. Belə ki, ABŞ-ın Federal Aviasiya İdarəsi ölkənin Fars körfəzi üzərindən uçan kommersiya təyyarələrinə xəbərdarlıq edib. Qurum İranla ABŞ arasında münasibətlərin gərginləşdiyi bir vaxtda təyyarələrin hədəf halına gələ biləcəyini ifadə edib və bu səbəbdən onların başqa marşrutlardan istifadə etməsini məsləhət görüb. İdarənin yaydığı bəyanatda bildirilir ki, son günlər regionda hərbi iştirak və siyasi gərginliyin artması ABŞ mülki təyyarələrinin uçuşlarını risq altına alır. Bundan başqa məlumdur ki, ABŞ-ın "Exxon Mobil" şirkəti İraqdakı neft yatağında çalışan işçilərini evakuasiya edir. Buna səbəb kimi yenə İran-ABŞ gərginliyi göstərilir. Xatırladaq ki, ötən həftə ABŞ İraqdakı "fövqəladə işçi olmayan" dövlət məmurlarını geri çağırmışdı. Bundan sonra Almaniya və Hollandiya da eyni addım atıb. "Sky News Arabia" telekanalının xəbərinə görə isə, yaranmış durumda iranlılar ABŞ-ın mümkün zərbələrindən ehtiyat edərək artıq ölkəni tərk etməyə başlayıb. Onların arasında İran hakimiyyətinin rəsmi şxslərinin qohumları da var.

Belə vəziyyətdə məsələnin danışıqlar yolu ilə də həll edilməyəcəyi qətiləşib. Qeyd edək ki, daha öncə ABŞ prezidenti Donald Tramp bidirmişdi ki, məsələnin həlli üçün Tehran rəsmiləri ona zəng etməlidir. Amma İran prezidenti Həsən Ruhani bunun mümkünsüz olduğunu bildirir: "İran xalqı müdrük və uzaqgörən olduğu üçün dialoqun əhəmiyyətli olduğunu başa düşür. Lakin İran təzyiqlər və sanksiyalar altında qalaraq ABŞ-la danışıqlara getməyəcək. ABŞ administrasiyası dialoq təklif etmək əvəzinə İranı danışıqlara məcbur edəcəyini bəyan edir. Bu qəbuledilməzdir. Bütün dünya bizim əleyhimizə olsa da, İran sanksiya və təzyiqlərə məruz qalaraq ABŞ-la danışıqlara getməyəcək". Ruhaninin fikrincə, indiki məqamda danışıqlara getmək İranın məğlubuyyəti olar.

Bunun ardınca İran mayın 21-dən başlayaraq az zənginləşdirilmiş uranın istehsal həcmini 4 dəfə artıracağını bildirib. İranın Nüvə Enerjisi Təşkilatının sözçüsü Bəhruz Kamalvəndi faktı təsdiq edib. Məhz bu xəbərdən sonra ABŞ prezidenti Donald Tramp da danışıqların alınmadığını diqqətə çatdırıb. Tramp ABŞ-ın bu fonda İranla müzakirələr üçün çalışdığı barədə yayılan xəbərlərin yanlış olduğunu, İran xalqı üçün vəziyyətin təəssüfedici olduğunu vurğulayıb. Belə vəziyyət savaş ehtimalının daha da gücləndiyini göstərir və artıq Tramp özü də bu barədə qəti danışır. O, İranın ünvanına növbəti hədələyici bəyanatla çıxış edib: "İran döyüşmək istəyirsə, bu rəsmən onun sonu olacaq. Birləşmiş Ştatları hədələməyə cəsarət etməyin". Tramp bildirib ki, İranın nüvə silahı əldə etməsinə yol verilməyəcək. "Mən ancaq onu istəyirəm ki, onların əlində bizi hədələmək üçün nüvə silahı olmasın. Məsələ belədir ki, mən döyüşməyin tərəfdarı deyiləm. Çünki müharibə iqtisadiyyatı dağıdır, ən mühümü budur ki, müharibədə insanlar həlak olur. Lakin İranla bağlı məsələ belədir ki, onlara nüvə silahı əldə etmək imkanı vermək olmaz". Məhz bu fonda xatırladaq ki, ABŞ Fars körfəzi regionuna qüvvə cəmləşdirir və bunu İranın regionda Birləşmiş Ştatların maraqlarına qarşı hansısa hücumlar hazırlaması ilə əsaslandırır. Artıq Pentaqonun təyyarə daşıyan "Avraam Linkoln" gəmisi Bəsrə körfəzinə çatıb. Bundan başqa, ABŞ-ın bombardmançı B-52 təyyarələri və digər qırıcıları Qətərdəki ABŞ hərbi bazasında start vəziyyətdə dayanıb. B-52 bombardmançı təyyarələri nüvə başlığı daşımaq imkanlarına sahibdir. Vaşinqton Yaxın Şərqdə, daha dəqiqini desək, İran ətrafında "Patriot" raket əleyhinə müdafiə sistemi də qurmağı planlaşdırır. Hazırda bu sistemlər də İrana yaxın ərazilərə gətirilir. ABŞ-ın daha iki hərbi gəmisi - "USS McFaul" və "USS Gonzales" Fars körfəzi sularında üzür. Bu hərbi gəmilərdən hər biri 90 "Tomahawk" tipli qanadlı raket və digər sinifləndən olan raketlərlə təchiz edilir.

İran da sakit dayanmır. "New York Times" qəzeti isə yazır ki, Ağ Ev ABŞ kəşfiyyatının göndərdiyi görüntülərdən çox narahat olub. Bu görüntülərdə İran raketlərinin tam döyüş hazırlığına gətirildiyi aydın görünür. SEPAH komandiri, general Məhəmməd Saleh Cokar isə bildirib ki, İranın yaxınmənzilli raketləri ABŞ Hərbi Dəniz Qüvvələrinin Fars körfəzindəki gəmilərini məhv edə bilər. Savaşa ABŞ-la yanaşı, onun Fars körfəzindəki müttəfiqləri, İsrail kimi ölkələr də hazırlaşır. Artıq Birləşmiş Ştatların vacib müttəfiqi olan Səudiyyə Ərəbistanı xəbərdarlıq edib ki, Tehranın addımlarına ABŞ-la birgə cavab verməyə hazırdır. Səudiyyə Ərəbistanı kralı Salman ibn Əbdüləziz isə Körfəz Əməkdaşlıq Şurası və Ərəb Birliyinə üzv ölkələri 30 mayda Məkkədə fövqəladə zirvəyə çağırıb. Səudiyyə Ərəbistanı "təhlükəsizlik və sabitlik"toplantılarını Məkkə şəhərində keçirməklə İranın mühasirəyə alınmasına dini məna yükləmək istəyir. Beləliklə, ABŞ-ın İranı mühasirə hərəkatına Səudiyyə Ərəbistanı da qatılıb.

Səudiyyə Ərəbistanı hökuməti İrana qarşı gərginlik strategiyasının regional istiqamətini öz üzərinə götürüb. Ər-Riyad Məkkədəki zirvələri İrana qarşı ortaq cəbhəyə çevirməyi hədəfləyir. Səudiyyə Ərəbistanının SPA rəsmi xəbər agentliyinə müsahibə verən rəsmi nümayəndə kral Salmanın zirvə çağırışı ilə bölgədə təhlükəsizlik və sabitliyin gücləndirilməsi ilə bağlı müşavirə və koordinasiya qurmaq istədiyinə işarə vurub.

**Qeyd edək ki, ötən həftə Səudiyyə Ərəbistanında iki neft platformasına pilotsuz uçuş aparatları ilə təşkil olunan hücum və ikisi Səudiyyə Ərəbistana aid dörd ticarət gəmisinin təxribata məruz qalmasından sonra sözügedən zirvələrin təşkil olunması ilə bağlı qərar qəbul olunub. Kral Salmanın oğlu və müdafiə naziri şahzadə Xalid ibn Salman hücumlarda İranı ittiham edib. Mayın 30-da keçiriləcək iki zirvənin Məkkədə 31may-1iyun tarixlərində təşkil olunacaq 14-cü İslam Əməkdaşlıq Təşkilatı zirvəsindən öncəyə salınması Səudiyyə Ərəbistanının mesaj vermək qayğısı kimi dəyərləndirilir. Ər-Riyad hökuməti 3 zirvəni ard-arda keçirərək İrana qarşı ortaq cəbhəyə qatılmaq niyyətini bildirir. Bütün bunlar fonunda aydın görünür ki, İran məsələsi ətrafında bütövlükdə Yaxın Şərqdə geosiyasi mənzərənin yenidən formatlaşdırılması prosesi meydana gəlir.**

***Nahid SALAYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**




# "Azərbaycanın 10 min əsgəri gecə hücumunu dəf edərək Ermənistan ordusunun arxasına keçə bildi"

## *Ermənistanda xaos fonunda ordumuzun təlimlərinin düşmən ölkədə yaratdığı böyük ajiotaj belə ifadə edilir...*

**Ermənistanda son günlərdə baş verən proseslər işğalçı ölkədə xaotik vəziyyətin miqyasının daha da genişlənəcəyini, daxili ziddiyyətlərin əhəmiyyətli dərəcədə kəskinləşəcəyini göstərir. Bütün bunlara əsas səbəb Ermənistanın sabiq prezidenti Robert Köçəryanın şərti azadlığa buraxılması və baş nazir Nikol Paşinyanın bundan ciddi surətdə əndişələnməsidir.**

Çünki Paşinyan Köçəryanın daxil olduğu "Qarabağ klanı"nın onu devirməkdə maraqlı olduğunu, bu istiqamətdə hərəkət etdiyini yaxşı bilir.

Real vəziyyət bu qənaətə gəlməyə əsas verir ki, "Qarabağ klanı"ndan ehtiyat edən Paşinyan icraedici və qanunverici orqandan sonra onların məhkəmə sistemində də mövqelərini sarsıtmağı düşünür. Baş nazir artıq bildirib ki, məhkəmə strukturunda yeni islahatlar aparılacaq. Paşinyanın bu addımı ölkədə "kimin hakim" olduğunu göstərmək gedişi olaraq qiymətləndirilir. Amma erməni mediasının yazdıqlarından, ekspert çevrələrində səslənən fikirlərdən belə bəlli olur ki, tərəflərin məhkəmələr üzərində çəkişməsi Ermənistanı daha zəif hala gətirəcək və belə vəziyyətdə Dağlıq Qarabağ münaqişəsi ilə bağlı vəziyyətdə də dəyişikliklər olması proqnozlaşdırılır. Məsələn, erməni ekspert Artaşes Qeqamyan bildirir ki, Ermənistanda daxili çəkişmənin kəskinləşdiyi bir vaxtda Azərbaycan mövqelərini gücləndirir, çoxsaylı hərbi təlimlər keçirir. Ekspert vurğulayır ki, bu durum Qarabağ münaqişəsinə kimin necə hazırlaşdığını çox aydın göstərir. Bu xüsusda Rusiyanın "regnum.ru" portalında erməni ekspert mövqeyini belə ifadə edir: "Deməli, mayın 20-də Azərbaycan yeni hərbi təlimlərə start verib. Bundan əvvəl isə Azərbaycan-Türkiyə "Mustafa Kamal Atatürk-2019" birgə taktiki-hərbi təlimləri baş tutub. Təlimin təşkilatçıları tərəfindən bildirildiyi kimi, bu, şəxsi heyətin döyüş hazırlığı səviyyəsini yüksəltmək və birgə döyüş əməliyyatları aparmaq vərdişlərinin inkişafı, habelə iki ölkə hərbçilərinin qarşılıqlı münasibət və qarşılıqlı anlaşmasını yüksək səviyyədə saxlamaq, təcrübə mübadiləsi aparmaq üzrə qərargahların birgə hazırladığı planlar yoluyla Azərbaycan və Türkiyə hərbi bölmələrinin qarşılıqlı fəlaiyyəti üçün nəzərdə tutulub. Həmçinin qeyd edək ki, birgə təlimlərə 10 min hərbçiyədək şəxsi heyət, 150 ədəd tank və başqa zirehli texnika, 200-ə qədər müxtəlif kalibrli raket-artilleriya qurğusu, reaktiv yaylım atəşi sistemi və minatanlar, habelə 35 döyüş təyyarəsi və helikopter cəlb olunub. Azərbaycan və Türkiyənin belə görünməmiş əhatəli hərbi təlimləri sanki Ermənistanın "xalq baş naziri"nə ayıldıcı təsir göstərməli idi. Amma və lakin belə deyilmiş.

Ermənistan hökuməti əvvəlcə Dağlıq Qarabağdakı rejimin birinci, Ermənistan Respublikasının ikinci prezidenti haqda mülki hüququn təməl prinsipi - təqsirsizlik ehtimalının kobud pozulması ilə müşayiət olunan məhkəmə prosesinin gedişində şou başlayıb. Heç olmasa bu faktı götürək ki, Ermənistan hökuməti tərəfindən anlaqlı Robert Köçəryanın 2008-ci ildə Ermənistanın konstitusiya quruluşunu devirməkdə ittihamı əsaslandırmaq qəsdilə hər cür informasiya fonu yaradılıb. Təbii, "Azatutyun" radiosu informasiya killerlərinin ön sırasında idi. Qeyd edək ki, birbaşa informasiya şantajına, cürbəcür qrantyeyənlər növündən dəvət edilən kütlənin, eləcə də 2008-ci ilin 1 martında faciəli şəkildə həlak olmuş həmvətənlərimizin yalan təbliğatın aldatdığı ayrı-ayrı qohumlarının fiziki varlığına baxmayaraq, bunlar baş verdi. Bununla belə, İrəvan ümumi ədliyyə məhkəməsi bu il mayın 18-də Robert Sedrakoviç Köçəryanı həbsdən azad edib. Bu, Dağlıq Qarabağdakı rejimin əvvəlki rəhbəri Arkadi Qukasyan və fəaliyyətdə olan Bako Saakyanın zəmanəti sayəsində mümkün olub. Gözləmək lazım gəldiyi kimi, müstəqil ədliyyənin icraatı Ermənistanda 2018-ci ilin aprel-mayında baş tutan dövlət çevrilişinin bələdçilərinin qanını qaraldıb və onları acıqlandırıb. Bələdçilərin Ermənistan ədliyyəsini Ermənistanda dövlət çevrilişindən sonra yayılmış əxlaqa xas "yüksək mənəvi arşınlar üzrə" aşkar maliyyə və informasiya hıqqıltısına gətirməyi izsiz ötüşmə bilməyib. Bu iflas "xalq baş naziri"nin "Facebook"da birbaşa işvəli efirində öz əksini tapıb.

Deməli, Nikol Paşinyan cari il mayın 20-də saat 8.30-dan Ermənistan Respublikasının ərazisində bütün məhkəmələrin giriş və çıxışını bağlamaq haqda təhlükəli bəyanatla çıxış edib. Bu fitnəkarlıq məhz bu günlərdə - Bakıda bədii gimnastika üzrə dünya çempionatı başa çatandan sonra və Azərbaycan silahlı qüvvələrinin hərbi təlimləri dövründə heç də təsadüfən təşkil edilməyib. Şübhə doğurmur ki, Azərbaycan Qarabağ məsələsinin həlli üçün müharibəyə hazırlaşır. Özü də Rusiya iləTürkiyənin formalaşan işgüzar münasibətləri fonunda beynəlxalq durum da Azərbaycanın lehinədir. Azərbaycana hərbi texnologiyalar və dronların məşhur satıcısının və şübhəsiz onun okeanarxası tərəfdaşının da Azərbaycanla münasibətləri yüksək səviyyədədir. Ermənistanda isə bunlar fonunda vəziyyət çox gərgindir və bu da Qarabağ məsələsində savaşın taleyinə təsir edəcək başlıca faktorlardandır".

Beləliklə, qeyd edilənlərdən aydın görünür ki, Ermənistanda məlum qarışıqlıq fonunda Azərbavycan ordusunun təlimləri düşmən ölkədə böyük əndişə yaradıb. Xatırladaq ki, müdafiə naziri, general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə mayın 20-dən Azərbaycan ordusunun müxtəlif qoşun növlərinin, qisim, birlik və birləşmələrin cəlb edilməsi ilə genişmiqyaslı əməliyyat-taktiki təlimləri başlayıb. Təlimlərin əsas mövzusu düşmənin gecə vaxtı hücumunun dəf edilməsi, müxtəlif istiqamətlərdə ona əks zərbələrin endirilməsi və qoşunlarımızın hücuma keçməsidir. Təlimlərə 10 minədək şəxsi heyət, 150 tank və digər zirehli texnika, 200-dək müxtəlif çaplı raket və artilleriya qurğusu, yaylım atəşli reaktiv sistemləri və minaatan, 35 təyyarə və helikopter cəlb olunub. Çətin relyef, gecə vaxtı və mürəkkəb radioelektron şəraitdə müxtəlif poliqonlarda keçirilən döyüş atışlı təlimlərdə tank, aviasiya, raket və artilleriya hissələri, eləcə də digər döyüş elementləri arasında uzlaşmanın təşkili, düşmənin müdafiəsinin dərinliyində desant və xüsusi manevr qüvvələrinin tətbiqi, idarəetmə orqanlarının bacarıqlarının təkmilləşdirilməsi, o cümlədən şəxsi heyətin mənəvi-psixoloji təminatı məsələləri üzrə tapşırıqlar yerinə yetiriləcək. Bütün fəaliyyətlər təlimlərdə iştirak edən qoşunların gecə və çətin iqlim şəraitində dəqiq qarşılıqlı əlaqəsinin təmin edilməsi ilə icra olunacaq. Təlimlər mayın 24-dək davam edəcək. İndi Ermənistanda ehtiyat edirlər ki, ölkədə vəziyyətin qarışması fonunda Azərbaycan təlimlərdən real döyüş əməliyyatlarına keçsin. Özü də bu fikirlər o fonda səslənir ki, Paşinyan özü Azərbaycana ərazilərin Ermənistanda baş verənlərlə bağlı qaytarılmasını istisna etməyib. Paşinyan bu xüsusda bildirib: "Bəzi qüvvələrin hərəkətlərində xəyanətkar müharibəni qızışdırmaq, bəzi əraziləri təhvil vermək və bunda Ermənistan hökumətini ittiham etməyə qədər gedib çıxan məqsədlər görürəm". "Past" qəzeti isə bu fonda yazır: "Ermənistanın baş naziri Nikol Paşinyan ölkədə baş verənlərdən sonra müdafiə naziri David Tonoyanla və baş qərargahın rəisi Artak Davtyanla məxfi müşavirə keçirib. Müşavirədə müdafiə nazirinin və Baş qərargah rəisinin Paşinyana nə məruzə etdikləri məlum deyil. Amma bir məsələ aydındır: söhbət təmas xəttindəki gərgin vəziyyətdən və Azərbaycanın mümkün hücumundan gedib. Habelə məruzə olunub ki, Azərbaycan mayın 20-də 10 minlik qüvvənin iştirakı ilə təlimlərə başlayıb. Bizim məlumatlarımıza görə, məhz bu xüsusatlar, habelə məhkəmələrə girişi bağlamaq çağırışı ilə küçələrə çıxanların sayının azlığı Paşinyanı ritorikanı dəyişməyə, eyforik və aqressiv bəyanatlardan daha konstruktiv leksikona keçməyə məcbur edib".

Baş verənlərlə bağlı İrəvana yollanan Qarabağ separatçılarının rəhbəri Bako Saakyan vəziyyətin təhlükəli olduğunu etiraf edib. Nikol Paşinyanın çıxışından sonra o, İrəvanda Ermənistan parlamenti qarşısında çıxış edib. Parlamentdəki görüşlərindən sonra jurnalistlər qarşısına çıxan Saakyan Köçəryana zamin durmaqla əlavə gərginlik yaratmaq istəmədiyini deyib. Paşinyanın "Qarabağda bəzi qüvvələr torpaqları Azərbaycana vermək istəyir" bəyanatına münasibət bildirən Saakyan İrəvanın bu tip qüvvələri ortaya çıxarmaq məcburiyyətində olduğunu deyib. Saakyan belə qüvvələrin olması ilə bağlı heç bir məlumata malik olmadığını bildirib: " Paşinyanın dediyi belə qüvvələr varsa, biz bu adamları aşkara çıxarmalıyıq və belə məqsədlər varsa, mən də bunu xəyanət kimi qiymətləndirirəm. Məndə belə satqın hərəkətlər hazırlayan qüvvələrin, xadimlərin olmasına dair informasiya yoxdur". Separatçıların lideri Ermənistanla Qarabağ ermənilərinin münasibətlərində gərginlik mövzusunun süni şəkildə yaradıldığını da deyib: "Bizim aramızda belə gərginliyin mövcudluğu təhlükəlidir və bundan yararlarana bilərlər". Lakin Bako Saakyanın qeyd etdiklərinə rəğmən, "Qraparak" qəzeti vəziyyətin ağır olduğunu yazır. Belə ki, qəzetin yazdığına görə, Nikol Paşinyan Qarabağ separatçılarının rəhbəri ilə görüşü zamanı ondan Robert Köçəryana zamin durmasının izahını tələb edib: "Paşinyanın izahat tələbinə cavabında Saakyan onların Qukasyanla davranışında heç bir siyasi məqsəd olmadığını və yalnız humanizm göstərdiklərini deməklə kifayətlənib. Paşinyanla bərabər, Saakyan "Mənim addımım" blokunun deputatlarıyla da görüşüb və onlara Qarabağda əksinqilabın hazırlanmadığına dair zəmanət verib. Amma ona inanmırlar və Ermənistanla Qarabağdakılar arasında gərginlik artır". "Joxovurd" qəzeti Saakyanla deputatların görüşünün gərgin keçdiyini yazıb. Paşinyanın lideri olduğu "Mənim addımım" hakim fraksiyasının üzvü olan Andranik Köçəryan da vəziyyətin onlar üçün təhlükəli hala çatdığını bildirib.

Onun sözlərinə görə, bir çox qüvvələr Qarabağa siyasi proseslərin platforması kimi baxır və Azərbaycanın bundan istifadəsi tamamilə mümkündür: "Paşinyan artıq xəbərdarlıq edib. Azərbaycan Ermənistanda və Qarabağda istənilən çalxalanmadan istifadə etməyə çalışacaq. Ermənistanın zəiflədilməsinə yönələn hərəkətləri Azərbaycan diqqətdən qaçırmır". Məhz belə bir vaxtda ordumuzun təlimləri Ermənistanı daha da qorxudur. Çünki yaşanan gərginlik fonunda Ermənistanda, eləcə də zəbt edilmiş ərazilərimizdə yaradılan separatçı rejim daxilində qarşıdurmanın daha da kəskinləşməsi gözlənir. Məhz belə vəziyyətdə Azərbaycanın hərbi əməliyyatlara start verə biləcəyi indi Ermənistan üçün ən böyük qorxuya çevrilib.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Kılıçdaroğlunun toxunulmazlığını almaq və İmamoğlunu İstanbul seçkilərinə buraxmamaq - deyilənlər doğrulsa...

**Türkiyə mətbuatı məlumat yayıb ki, Cümhuriyyət Xalq Partiyasının (CHP) sədri Kamal Kılıçdaroğlu parlament toxunulmazlığını itirə bilər. Həmçinin, o da qeyd olunur ki, Türkiyə parlamentində 25-dən çox deputatın toxunulmazlığı ləğv edilə bilər. Bununla bağlı Türkiyə Prezident Administrasiyası hüquqi məsələlər üzrə parlament komissiyasına müraciət edib.**



*"Millətin seçdiyi deputatın toxunulmazlığı..."*

***Məhərrəm Zülfüqarlı:** "2 məsələ ilə bağlı məhdudiyyət tətbiq edilərsə, bu, Türkiyənin ictimai-siyasi həyatında gərginliyə səbəb olacaq"*

Məlum olduğu kimi, Türkiyədə Yüksək Seçki Qurumu İstanbul bələdiyyə seçkisinin nəticələrini ləğv edib. Təkrar seçkilər iyun ayının 23-də keçiriləcək. Bu arada Türkiyədə müəyyən dairələrdə belə söz-söhbətlər dolaşır ki, Yüksək Seçki Qurumu Binəli Yıldırım və Əkrəm İmamoğlunun növbəti seçkidə iştirakına məhdudiyyət qoyacaq. İddialara görə, bunun səbəbi onunla əlaqələndiriləcək ki, hər iki namizəd saxtakarlığa yol verib.

O da məlumdur ki, İmamoğlunun populyarlığı xeyli artıb. Ehtimal ki, növbti seçkidə o daha çox səs toplayacaq və böyük üstünlüklə qalib gələcək.

Bütün hallarda, Kılıçdaroğlunun parlament toxunulmazlığı və Binəli Yıldırımla Əkrəm İmamoğlunun namizədlikləri ləğv edilərsə, bu, Türkiyədəki proseslərə necə təsir göstərəcək?

**Məsələyə münasibət bildirən İctimai Problemlərin Tədqiqi Assosiasiyasının rəhbəri Məhərrəm Zülfüqarlının sözlərinə görə, belə addımlar atılarsa, bu, Türkiyədə ictimai-siyasi proseslərə mənfi təsir göstərəcək:** "Türkiyə Müsəlman Şərqində demokratik bir dövlətdir. 2016-cı ilin 15 iyulunda FETÖ-nün çevriliş cəhdindən sonra ölkədə bəzi məsələlər nisbətən dəyişir. Ölkə parlament üsulidarəsindən prezident üsul-idarəsinə keçdi. Müəyyən ali məktəblərdən FETÖ-çülər təmizləndi. Belə addımlar dövlət təhlükəsizliyi baxımından qəbuledilən idi. Ancaq parlamentdə deputatların, ən başlıcası isə ana müxalifət liderinin toxunulmazlığı ləğv etmək istəyi demokratiyaya ziddir. Millətin seçdiyi deputatın toxunulmazlığı təmin edilməlidir. Millət vəkili cinayət törədirsə, o zaman buna getmək olar. Çünki bu bütün dünyada belədir. Yoxsa siyasi səbəblərə görə bu addımı atmaq demokratiyaya ziddir. İmamoğlunun namizədliyinin ləğv ediləcəyi ilə bağlı iddialar xoşagələn hal deyil. Çünki artıq dünya bildi ki, İmamoğlu bələdiyyə sədri seçildi. Sonra şikayətlər üzündən nəticələr ləğv edildi. O təkrar özünü sınamaq istəyirsə və qələbəsinə əmindirsə, bunun qarşısını hansısa formada almaq demokratiyaya ziddir. Sadalanan 2 məsələ ilə bağlı məhdudiyyət tətbiq edilərsə, bu, Türkiyənin ictimai-siyasi həyatında gərginliyə səbəb olacaq. Ölkədə gənclərin demokratiyaya inamına mənfi təsir edəcək.

Ölkə üçün yaxşı olmayan hadisələrə səbəb ola bilər. Hakimiyyət daimi olmadığına görə, sabah ölkədə iqtidar dəyişsə, kimlərsə buna görə cavab verməli olacaq. Nəticədə buna görə ölkədə ziddiyyətlər dərinləşə bilər. Ona görə də bunlar arzuedilən deyil".

***Vidadi ORDAHALLI***

# ABŞ-la Türkiyə arasında "S-400" gərginliyi bitməmiş "S-500" gəlir... Ərdoğanın birgə istehsal təklifinə Rusiyadan ilk reaksiya...



**Rusiyalı ekspertlər Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın "S-400" zenit-raket komplekslərinin alınmasından sonra "S-500" sistemlərini həm alıb, həm də Rusiya ilə birgə istehsalına dair açıqlamasına müsbət yanaşır.**

Türkiyə KİV-nə istinadən xəbər verir ki, Ərdoğanın fikirlərini dəyərləndirən rusiyalı hərbi mütəxəssislər bunun mümkünlüyünə dair Rusiya rəsmilərinin əvvəlki açıqlamalarına diqqət çəkirlər.

"Russia Today"ə açıqlama verən ekspertlərin fikrincə, bunun üçün ilk olaraq ölkələr arasında vahid texniki standart formalaşdırılmalıdır. "Arsenal Oteçestva" hərbi jurnalının redaktoru Aleksey Leonkov raket əleyhinə müdafiə sistemlərinin birgə istehsalı sahəsində əməkdaşlığın genişləndirilməsinin nəzəri cəhətdən mümkün olduğunu deyib. O, Rusiyanın Hindistanla buna bənzər təcrübəsinin olduğunu bildirib: "Məsələn, Hindistanla tank hissələrinin birgə istehsalı təcrübəsi mövcuddur. "Su-30MKİ" tipli tank istehsal edilir, hindistanlılar isə daha sonra tanka öz avadanlıqlarını quraşdırır və öz silah sistemlərinə uyğunlaşdırırlar. Yəni Rusiyanın başqa ölkələrlə birlikdə hərbi texnika istehsal etmək təcrübəsi var".

Qeyd edək ki, bundan əvvəl Türkiyədən Rusiya ilə 5 nəsil döyüş təyyarələrinin istehsalı ilə bağlı əməkdaşlığın mümkünlüyünə dair açıqlamalar verilmişdi.

Onu da xatırladaq ki, ABŞ-la Türkiyə arasında Rusiya "S-400"lərinə görə gərginlik yaranıb. Hətta ABŞ Dövlət Departamenti Türkiyəni sanksiyalarla hədələyib. Birləşmiş Ştatlar Rusiyadan "S-400" alacağı təqdirdə Türkiyəyə sanksiyalar tətbiq edəcəklərini açıqlayıb. ABŞ Türkiyəni "F-35" qırıcılarının 5-ci nəsil proqramının yaradılmasında iştirakına son verməklə hədələyir.

# İran soğan ixracına qadağanı ləğv etdi



**İranın sənaye, mədən və ticarət naziri Rza Rəhmaninin göstərişilə soğan ixracına qadağa ləğv olunub.**

Bu barədə "Trend" Gənc Jurnalistlər Klubuna (YJC) istinadən məlumat verib. Məlumata əsasən, soğan satışında İranın cənubunda yerləşən Xuzistan vilayəti təsərrüfatçılarının problemləri nəzərə alınaraq, Kənd Təsərrüfatı Nazirliyi tərəfindən məhsulun miqdarının artıq olduğu təsdiqlənib. İranın sənaye, mədən və ticarət naziri bunu əsas götürərək soğanın ixrac edilməsi ilə bağlı gömrük orqanlarına göstəriş verib. Xatırladaq ki, İranda yerli bazarı tənzimləmək məqsədilə 4 aprel tarixindən soğanın ixracı İranın sənaye, mədən və ticarət nazirinin göstərişilə qadağan olunmuşdu.

# "Unibank"ın dollar kreditli müştəriləri aldatmasına aid daha bir fakt...

**Məlum olduğu kimi, ölkədə olan problemli kreditlərin həcmi o qədər şişdi ki, sonra ölkə başçısı məsələyə müdaxilə etməli oldu. Ölkədə baş verən iki devalvasiya hadisəsindən sonra dolların qiyməti az qala iki dəfə qalxdı. Bunun da nəticəsində onsuz da çətin maddi durumda olması səbəbindən kredit götürməyə məcbur olan borclular banka iki dəfə artıq məbləğdə pul ödəməkdə çətinlik çəkdilər. Bunun da nəticəsində sonsuz sayda məhkəmə iddiaları qaldırılmalı oldu.**

Prezidentin imzaladığı müvafiq fərmandan sonra əhalinin kredit borcları bağışlandı, onların kursdan artıq ödədikləri məbləğlər kompensasiya şəklində geri qaytarıldı. Kompensasiyaların verilməsindəki şəffaflığı təmin etmək məqsədilə proses tam elektronlaşmış formada həyata keçirildi. Vətəndaş yaradılmış saytda öz adını tapıb, ona nə qədər kompensasiya müəyyən edildiyini öyrənə bilir. Proses çox sadədir, vətəndaşa kompensasiya müəyyən edilibsə, deməli, onunla bank arasındakı bütün mübahisələr həllini tapmış olub. Ancaq bizə edilən şikayətlərdən məlum olur ki, ölkəmizdə fəaliyyət göstərən və "hər kəsin bankı" olduğunu bəyan edən "Unibank" kompensasiyaların ödənişi və problemli kreditlərin nizama salınması ilə bağlı məsələdə vətəndaşları qanunsuz pul tələbləri ilə, sözün əsl mənasında, incidir. Bu da ölkə rəhbərliyinin deyilən sahədəki problemlərin aradan qaldırılması istiqamətində atdığı humanist addımlarla daban-dabana ziddiyyət təşkil edir.

Prosesdən növbəti şikayəti "Unibank"ın qanunsuzluqları ilə qarşılaşan Yusifov Rasim Firidun oğlu edir. Şikayətçi vətəndaş yazır: "Cənab Prezidentin problemli kreditlərlə bağlı sərəncamından sonra mənə 1181 manat kompensasiya hesablanmışdı. Mən cox gözlədim ki, mənə SMS gələcək, amma bu baş vermədi. Nəhayət, özüm müraciət etdim və şok yaşadım. Bankdan mənə bildirildi ki, "Unibank"a borcum var - 913 manat. Fimsa.az saytından götürdüyüm məlumatdan isə açıq görünür ki, vətəndaşa çatan hissə 1181 manatdır, borca yönəldilən hissə - 00, restruktrizasiyaya yönəldilən hissə - 00. Qeyd etmək istəyirəm ki, belə vəziyyətlə üzləşən təkcə mən deyiləm, buna ancaq "Unibank" KB ASC-də rast gəlinir. Cənab Prezidentin sərəncamında bütün dəbbə və faizlərin silinməsi banklara tövsiyə edilmişdi. Amma "Unibank" nəinki faiz silir, hələ özündən mifik faizlər fikirləsib tapır".

Qeyd edək ki, bənzər situasiya ilə üzləşənlərdən biri də "Bakı-Xəbər" qəzetinin əməkdaşı Samirə Səfərova olub. Bu problemə bir neçə dəfə toxunsaq da, bank qanunsuz tələblərinin yerinə yetirilməsində israrlıdır. Samirə xanımın üzləşdiyi vəziyyətlə bağlı qısaca xatırlatma verək ki, 2013-cü ilin avqustunda əməkdaşımız "Unibank"dan 3 min manat kredit və min manatlıq "Al kart" götürüb. Bir il aylıq ödənişlərini düzənli etdikdən sonra, 2014-cü ilin iyul ayında yenidən həmin banka müraciət edərək daha min manat kredit götürüb, bu krediti isə ona dollarla hesablayacaqlarını bildiriblər, jurnalist dollarla istəmədiyini dedikdə isə bildiriblər ki, pulu ona manatla verəcəklər. Lakin çox keçmədən, ayda bir neçə dəfə ödəniş etmək həm maddi, həm də fiziki cəhətdən çətinlik törətdiyi üçün banka müraciət edərək, kreditlərinin birləşdirilməsini və beləliklə, ayda bir dəfə ödəniş etməsini istəyib. 2014-cü ilin dekabrında onun kreditlərini birləşdirərək ümumi məbləğin 5 min dollar etdiyini deyiblər (manatla bu məbləğ 3900 manat idi - red.). Bildiriblər ki, hazırda bank manatla kredit vermədiyindən (!), onun da borcunu dollarla sənədləşdiriblər. Əməkdaşımız buna etiraz etdikdə isə deyiblər ki, bunun sizə dəxli yoxdur, siz ödənişlərinizi dollar ekvivalentində manatla edəcəksiniz. Lakin iki ay keçmədən, məsələnin xanım jurnalistə dəxli olub, özü də birbaşa anlamda. Belə ki, 2015-i ilin fevralında devalvasiya baş verib və bankdan əməkdaşımıza zəng vurub deyiblər ki, bundan sonra aylıq ödənişləriniz 160 deyil, 192 manat təşkil edir. Əməkdaşımız banka gedərək buna etiraz edib, bildirib ki, bankdan kreditləri manatla götürüb və onların həmin məbləği dollara çevirməsinə də etiraz edib, lakin onu arxayın ediblər ki, heç bir şey baş verən deyil, o üzdən də ona hansısa şəkildə güzəşt tanınmalıdır. Lakin bankın heç bir yetkilisi onu qəbul etmək istəməyib, sıravi işçilər isə bunun onların səlahiyyətində olmadığını bildiriblər. Əlacsız qalan əməkdaşımız aylıq ödənişlərini əvvəlki qaydada - 160 manatdan ödəməkdə davam edib. Lakin 3 ay belə davam etdikdən sonra bank,




ayda 160 manat ödəniş etməsinə və bunu heç bir halda yubandırmamasına rəğmən, onu məhkəməyə verib. Üstəlik, Səbail məhkəməsi də vətəndaşın mənafeyinə etinasızlıq göstərərək bankın xeyrinə addım atıb və aylıq maaşının 50 faizinin (!) bankın xeyrinə tutulması barədə qərar çıxarıb. Ədalət mühakiməsindən əli üzülən S.Səfərova 2018-ci ilin avqustuna kimi ödənişlərini ayda 100 manat olmaqla bu şəkildə edib. Ötən ilin avqustunda isə bankın əməkdaşları yenidən jurnalistə hər gün zəng etməyə başlayıblar. Gündə bir neçə dəfə əməkdaşımıza telefon açan "Unibank" işçiləri onu hər vəchlə inandırmağa çalışıblar ki, gəlib borcunu yenidən hesablatsa, onun üzərindən məhkəmə qətnaməsi götürüləcək. Hətta deyiblər ki, bunu edərsinizsə, sizə yenidən kredit verməyə də hazırıq. Əməkdaşımız bir neçə gün bu zənglərə əhəmiyyət verməyib, bildirib ki, ona heç nə lazım deyil və borcunu eyni şəkildə ödəməkdə davam edəcək. Lakin israrlı zənglər öz işini görüb. Sentyabrın 13-də əməkdaşımız bankın Nərimanov rayonundakı filialına gedib və ona bildiriblər ki, sizə ən aşağı faiz tətbiq olunacaq, cəmi 15 faiz. Məhz bundan sonra məsələnin mahiyyəti əməkdaşımıza aydın olub - sən demə, məhkəmə qərarı qüvvədə olduğu müddətdə bank özünün soyğunçu faiz siyasətindən məhrum qalıbmış! Lakin bu da son deyil. Əməkdaşımız sənədləri imzalayıb qalxarkən digər bank işçisinin qarşısındakı müştəriyə borcunu 7 faizlə (!) hesabladığını dediyini eşidib, lakin "bəs onda mənə niyə 15 faiz" sualı havadan asılı qalıb. Beləliklə, yeni qrafikə əsasən əməkdaşımız ötən ilin sentyabrından ayda 120 manat ödəniş etməyə başlayıb. Bu, Prezidentin problemli kreditlərlə bağlı məlum fərmanı çıxanadək davam edib və o, Maliyyə Bazarlarına Nəzarət Palatasının saytında adının çıxmasını gözləyib. Bank isə bu müddətdə də ondan ödəniş tələb etməyə davam edib. Samirə xanım deyir ki, Palatanın saytında adının çıxması və ona 3451 manat kompensasiya hesablanması sanki çiyinlərindən ağır bir yükü qaldırıb. Təbii, bu iki aylıq müddətdə bankın onun özünə, ailə üzvlərinə, iş yerinə, hətta baş redaktoruna zəngləri ara verməyib. Mayın 15-də telefonuna bankdan gələn SMS isə onu çaşdırıb, çünki burada Palatanın təyin etdiyi 3451 manat kompensasiya məbləği 297 manat azaldılaraq 3154 manat olmuşdu. Bank bunu mart-aprel ayları üçün ödənişlərin olunmaması və gecikmə ilə bağlı əlavə faiz hesablanması ilə izah edib, halbuki, Palatanın əməkdaşımızla bağlı açıqladığı cədvəldə "qalıq borc" qrafasında "0" yazılıb, yəni bu illər ərzində əməkdaşımızın ödədiyi pullar bankın borcunu nəinki tamamilə qapatmağa, hətta artıq ödənilən 3451 manat vəsaitin onun özünə kompensasiya şəklində qaytarılmasına yetərli olub. O halda, yəqin razılaşarsınız ki, "Unibank"ın hər cür fırıldağa əl ataraq insanları özünə borclu çıxarmağa çalışması heç cür anlaşılmır. Bütün bu qanunsuzluqlarla yanaşı onu da bildirməliyik ki, "Unibank" bu müddət ərzində əməkdaşımıza qarşı düz dörd qanunsuz hərəkətə yol verib. Birincisi, onun manatla götürdüyü krediti cəmi ilyarım sonra dollara çevirməklə, ikincisi, MBNP-nin ona kompensasiya şəklində hesabladığı məbləğdən qanunsuz olaraq 297 manat çıxmaqla, üçüncüsü, Prezidentin bərpa etdiyi ədalət sayəsində kompensasiya ödənişindən sonra da daha bir il bir ayda 120 manat ödəniş tələb etməklə, dördüncüsü, müştəri ilə problemə görə onun yaxınlarını və iş yoldaşlarını vaxt-bivaxt narahat etməklə. Biz bu məsələni ictimailəşdirəndən sonra Samirə xanım "Unibank"ın məsul şəxsləri tərəfindən banka dəvət olunub. Aparılan araşdırmalardan məlum olub ki, sən demə, bankın etdiyi ən böyük qanunsuzluqdan bizim xəbərimiz yox imiş. Məlum olub ki, bankın təkidlə Samirə xanımı 2018-ci ildə ora çağırıb dollarla olan borcu manata çevirmək kimi təklifinin arxasında məkrli niyyət gizlənibmiş. İndi bank rəsmiləri özlərini təmizə çıxarmaq üçün izah edirlər ki, sən demə, həmin vaxt aparılan əməliyyatda Samirə xanımın adına yeni kredit müqaviləsi rəsmiləşdirilib.

Yəni Samirə xanıma olunan güzəşt, verilən kompensasiya köhnə kreditə aiddir, 2018-ci ildə bağlanan müqaviləyə əsasən isə Samirə xanım banka kreditin faizni ödəməkdə davam etməlidir. Deməli, "Unibank" bilərəkdən vətəndaşı 2018-ci ildə tələyə salıb ki, bu gün Prezident fərmanının ətrafında rahat manevr edib, əhalinin təkrarən cibinə girə bilsin. Artıq görünür ki, bu aqibəti yaşayan çoxlu sayda vətəndaşımız var. "Unibank" niyə belə edir? Olmaya ölkədə yeni kütləvi narazılar ordusu formalaşdırmaq istəyir? Söhbət etdiyimiz bütün ekspertlər bildirirlər ki, bir kredit müqaviləsi üzrə vətəndaşa kompensasiya müəyyən edilibsə, bank ondan əlavə faiz tələb edə bilməz. Ekspertlərin sözlərinə görə, bu cür halları araşdırdıqda məlum olur ki, banklar vətəndaşı aldadaraq onunla yeni müqavilə bağlayıb ki, bu da bankdan yeni götürülmüş kredit anlamına gəlir. Bundan xilas olmaq üçün isə ekspertlər məsələni hüquq müstəvisində həll etməyi tövsiyə edir. Yəni məhkəməyə müraciət edilməlidir.

*Məhəmmədəli QƏRİBLİ*

**P.S. Məqalədə əksini tapan məsələyə "Unibank"ın mövqeyinə dair istənilən həcmdə material dərc etməyə hazırıq.**



"Müəyyən səbəblərdən insan alverinin qurbanına çevrilən şəxs düşdüyü vəziyyətdən qurtulmaq üçün 152 nömrəsilə əlaqə saxlayaraq həm özünü xilas etmiş olar, həm də cinayətkarları ifşa edər"

# Azərbaycan DİN-in dünyaya açılan 152 telefon nömrəsi insan alveri ilə mübarizəni xeyli gücləndirəcək

## *Şəmsəddin Əliyev: "İnsan alveri probleminin həll olunması üçün ölkəmizdə də mühüm işlər görülür"*

**Qloballaşan dünyanın dəhşətli problemlərindən biri də insan alveri ilə bağlıdır. Sahə gəlirli olduğundan, bu yolla pul qazananların sayı da getdikcə çoxalır.**

Heç təsadüfi deyil ki, bu gün dünyada insan alveri öz miqyasına görə silah alverindən sonra ikinci geniş və ən çox gəlir gətirən sahə hesab olunur.

Əslində, insan alverinin bir neçə növü var: insanların məcburi əməyə cəlb edilməsi, əməyin istismarı, azyaşlı uşaqların satılması və sair. İnsan alverinin ən çirkin üsullarından biri isə qadın alveridir. Bəli, bu bəla artıq bütün dünyanı cənginə alıb. Bu ağır cinayət hadisələri Azərbaycanda da az deyil. Bu problemin həll olunması üçün aidiyyəti qurumlar lazımi işlər görür.

İnsan alveri qurbanlarına dəstək olmaq üçün Daxili İşlər Nazirliyinin İnsan Alverinə Qarşı Mübarizə Baş İdarəsinin 152 "Qaynar xətt"i yaradılıb. Bu xidmətin yaradılmasında məqsəd insan alveri cinayətindən zərər çəkmiş şəxslərə, insan alverinin ehtimal olunan qurbanlarına və potensial qurbanlarına, xüsusən qadın və uşaqlara yardım məqsədilə məlumat-məsləhət xidməti göstərməkdir. "Qaynar xətt" həftənin bütün günləri 24 saat ərzində yalnız respublika ərazisində ödənişsiz xidmət göstərir, dünyanın hər bir ölkəsindən zəngləri qəbul edir.

Ekspertlər dünyanın istənilən ölkəsində insan alveri qurbanı olan şəxslərə yardım olunması üçün "Qaynar xətt"in yaradılmasını müsbət qarşılayırlar.

**"Polisə dəstək" İctimai Birliyinin sədri Şəmsəddin Əliyev "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, bütün dövlətlər çalışırlar ki, insan alverinin qarşısı alınsın.** Bu istiqamətdə ölkəmizdə də mühüm işlər görülür: "Daxili İşlər Nazirliyi insan alveri ilə mübarizədə lazımi işlər görür. Bu işlərdən biri də beynəlxalq arena üçün "Qaynar xətt"in yaradılmasıdır.

Müəyyən səbəblərdən insan alverinin qurbanına çevrilən şəxs düşdüyü vəziyyətdən qurtulmaq üçün 152 nömrəsilə əlaqə saxlayaraq həm özünü xilas etmiş olar, həm də cinayətkarları ifşa edər".

*Günel CƏLİLOVA*

---

**Azadlıqdan məhrumetmə yerlərində saxlanan şəxslərin əməyə cəlb edilməsi və onların peşə vərdişlərinin artırılması məsələsi aktual problem olaraq qalmaqdadır. Hansı ki, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində və Əmək Məcəlləsində məhkumların əməyə cəlb olunmasının hüquqi əsas və qaydaları müəyyən edilib və bu hüquqi əsaslar beynəlxalq standartlara cavab verir.**

# Azərbaycanda dustaqlara hansı sənətlər öyrədilir...



"Həbsxanada dülgər, işıqçı, xarrat, rəngsaz peşələri tədris olunur, ancaq hazırda bu peşələrə böyük tələbat yoxdur"

## *Əliməmməd Nuriyev: "Cəzaçəkmə müəssisələrində kompyuter biliklərinin daha geniş formatda tədrisinə ehtiyac var"*

Penitensiar Xidmətin cəzaçəkmə müəssisələrində saxlanan məhkumların əmək qabiliyyətli hissəsinin əməyə və peşə təhsilinə cəlb edilməsi ilə bağlı xüsusi dövlət proqramları var. Həmin dövlət proqramlarına əsasən, məhkumların bir qismi hansısa peşəyə yiyələnir.

Cəzaçəkmə müəssisələrində əsasən dülgərlik, bərbərlik, qaynaqçı, tornaçılıq və digər peşələr tədris olunur.

Qadın həbsxanalarında isə modelyer rəssam, xalçaçılıq, dərzilik ixtisasları, eləcə də kompyuter üzrə təhsil almaq, həm də təcrübə keçmək imkanı yaranıb.

Maraqlıdır, azadlıqdan məhrum olunan məhkumlar arasında hansısa peşənin sahibi olmayanlar cəzaçəkmə müəssisələrində tədris olunan hansı peşəyə maraq göstərirlər?

Ekspertlər hesab edirlər ki, cəzaçəkmə müəssisələrində tədris olunan standart peşələrlə yanaşı, yeni peşələrin də tədris olunmasına ehtiyac var.

**Konstitusiya Araşdırmaları Fondunun prezidenti Əliməmməd Nuriyev "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, bu gün cəzaçəkmə müəssisələrində məhbusların ixtisas artırması və yeni ixtisas əldə etməsi peşə məktəbləri mövcuddur:** "Cəzaçəkmə müəssisələrində əsasən dülgər, elektrik, işıqçı, xarrat, rəngsaz və digər peşələr tədris olunur. Bu peşələrlə yanaşı, cəzaçəkmə müəssisələrində kompyuter və mühasibat biliklərinin öyrənilməsi ilə bağlı xüsusi qruplar var".

Həmsöhbətimiz onu da vurğuladı ki, cəzaçəkmə müəssisələrində tədris olunan ənənəvi peşələr üçün əsasən köhnə avadanlıqlardan istifadə olunur. Yeni, müasir standartlara cavab verən avadanlıqların istifadə olunmasına ehtiyac var.

Ə.Nuriyev hesab edir ki, cəzaçəkmə müəssisələrində peşə təhsilinin mükəmməl mənimsənilməsi üçün yeni avadanlıqların təmini ilə yanaşı, müasir tələblərə cavab verən ixtisasların tədrisinə ehtiyac var: "Cəzaçəkmə müəssisələrində kompyuter biliklərinin daha geniş formatda tədrisinə ehtiyac var. Eyni zamanda, dizayn peşəsinə yiyələnən şəxslərə böyük tələbat var. Məlumdur ki, həbsxanada dülgər, işıqçı, xarrat, rəngsaz peşələri tədris olunur. Bu peşələrə hazırda böyük tələbat yoxdur. Hansı ixtisasa tələbatın yüksək olduğunu nəzərə alıb, onların tədrisini təşkil etmək lazımdır".

Hüquqşünas onu da əlavə etdi ki, bu gün cəzaçəkmə müəssisələri təhsil müəssisələri üçün mebel, partalar, şkaflar, uşaq bağçaları üçün çarpayılar, o cümlədən, ordu üçün mebel, çarpayılar, postellər, geyimlər, dövlət sifarişi ilə tikilən binalar üçün plastik qapı və pəncərələr, infrastruktur üçün nəzərdə tutulan məhsullar, həmçinin, yol nişanlarının hazırlanması kimi sifarişləri yerinə yetirmək imkanındadırlar: "Bunlar hazırda müəssisələrin mövcud potensialla yerinə yetirə biləcəyi sifarişlərin yalnız bir qismidir. Eyni zamanda, müəssisələrin kənd təsərrüfatı üçün müxtəlif təyinatlı avadanlıqlar istehsal etmək potensialı var.

**Bir çox müəssisədə xüsusi qabiliyyəti olan məhkumlar fərdi qaydada əl işlərindən ibarət müxtəlif hədiyyələr, o cümlədən, stolüstü oyun vasitələri, tikmə və toxunma məhsullar hazırlayırlar ki, bu da həm ölkədaxili istehlak, həm də xarici turistlərin istehlakı üçün tələb olunur. Hesab edirəm ki, cəzaçəkmə müəssisələrindəki işsizliyin aradan qaldırılması üçün sözügedən qurumların dəstəyi də lazım deyil, sadəcə, sifariş versələr kifayətdir".**

*Günel CƏLİLOVA*

# Türkiyə həkimləri Azərbaycan xəstəxanalarından gedir? - "Ege" Hospitaldan reaksiya...

## "Ege" Hospital: "...xəstəxananı tərk etmirlər"

**Son illər Azərbaycanda fəaliyyət göstərən özəl klinikalarda yerli həkimlərlə yanaşı, türkiyəli mütəxəssislərin də işləməsinin şahidi oluruq.**

*"Yeni müqavilə əsasında xəstəxanada türkiyəli həkimlər çalışacaqlar"*

O həkimlər özəl klinikalar tərəfindən xüsusi olaraq dəvət olunur. Gizlin deyil ki, azərbaycanlı pasientlər türkiyəli həkimlərə daha çox güvəndiyinə görə müayinə və müalicə üçün onların xidmətindən yararlanmağa üstünlük verirlər.

Araşdırmalara görə, son illər paytaxt xəstəxanalarında çalışan türk həkimlərinin sayı artıb. Xarici həkimlərin Azərbaycan səhiyyəsinə marağı artıb. Müxtəlif klinikalarda Türkiyənin məşhur həkimləri çalışırlar. Xəstələr də dərdlərinə əlac tapılması üçün həmin həkimlərə müraciət edirdilər. Məlumatlara görə, son zamanlar türkiyəli həkimlər artıq özəl klinikalardan ayrılaraq öz vətənlərinə geri qayıdırlar.

Bu halın "Ege" Hospitalda da yaşandığı bildirilir. Qeyd olunur ki, xəstəxanada işləyən türkiyəli həkimlər Azərbaycanı tərk etməyə başlayıblar.

Mediada yayılan məlumatlarda qeyd olunur ki, xəstəxanada işləyən türkiyəli həkimlərin Azərbaycanda işləməyə icazə almaqda çətinliklər yaşaması və zaman-zaman rəhbərliklə yaşadıqları maliyyə problemləri onları ölkələrinə qayıtmağa sövq edib. Bildirilir ki, türkiyəli həkimlərin ölkələrinə qayıtmalarının bir səbəbi də onlara verilən böyük vədlərin yerinə yetirilməməsidir.

"Ege" Hospitalda çalışan türkiyəli həkimlərin nə səbəbdən adıçəkilən klinikadan uzaqlaşmasını öyrənmək üçün xəstəxanaya müraciət etdik.




"Ege" Hospitaldan "Bakı-Xəbər"ə verilən məlumata görə, türkiyəli həkimlər xəstəxananı tərk etmirlər: "Sadəcə, həmin həkimlər müqavilə əsasında xəstəxanada çalışırdılar. Müqavilənin müddəti bitdiyi üçün həmin həkimlərlə əməkdaşlıq dayanır. Ancaq bu o demək deyil ki, "Ege" Hospitalda türk həkimləri olmayacaq. Yeni müqavilə əsasında xəstəxanada türkiyəli həkimlər çalışacaqlar".

*Günel CƏLİLOVA*

# Ermənistanın Azərbaycana təcavüzü nəticəsində itkin düşmüş soydaşlarımız unudulmayacaq...

**1988-ci ildən başlayaraq Ermənistanın təcavüzünə qarşı döyüşlərdə itkin düşmüş şəxslərlə bağlı Dövlət Komissiyası və Respublika Xatirə Kitabının birgə böyük həcmli və tarixi əhəmiyyətli işinin bir hissəsi yenicə yekunlaşıb. Minlərlə Azərbaycan vətəndaşının itkin düşdüyü ana qədərki həyat yolunu özündə əks etdirən dörd cildlik xüsusi buraxılışın ilk cildi artıq çapdan çıxıb. İlk cilddə 922 nəfər gənc, yaşlı qadın, kişi və uşaqlardan ibarət Azərbaycan vətəndaşı barədə məlumatlar yer alıb. Geniş oxucu marağını nəzərə alaraq, həmin nakam soydaşlarımızın bir neçəsi barədə məlumatı gündəlik olaraq yenidən sıra ilə təqdim etməyi qərara aldıq. Daha ətraflı məlumatı Xatirə Kitabının www.xatirekitabi.az saytından əldə edə bilərsiniz. Beləliklə, sözügedən nəşrdə yer alan itkin soydaşlarımızla bağlı məlumatları diqqətinizə çatdırırıq:**

**(Əvvəli ötən saylarımızda)**

**BABAYEV QOŞQAR HACIYUNUS oğlu**



20 may 1974-cü ildə Azərbaycan Respublikası Qax rayonunun Turaclı kəndində doğulmuşdur. Hərbi xidmətə qədər Bakı şəhərinin Nizami rayonunda yaşamışdır. Nizami RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Babayev Qoşqar Hacıyunus oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 25 aprel 1994-cü ildə Ağdam rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Babayev Qoşqar Hacıyunus oğlu 25 aprel 1994-cü il tarixində Ağdam rayonunun Güllücə kəndi ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür.

Babayev Qoşqar Hacıyunus oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**BABAYEV QÜDRƏT ƏSƏBALA oğlu**



1 yanvar 1967-ci ildə Azərbaycan Respublikası Şamaxı rayonunun Damlamaca kəndində doğulmuşdur. Hərbi xidmətə qədər Bakı şəhərinin Qaradağ rayonunda yaşamışdır. Qaradağ RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Babayev Qüdrət Əsəbala oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 13 fevral 1994-cü ildə Kəlbəcər rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Babayev Qüdrət Əsəbala oğlu 13 fevral 1994-cü il tarixində Kəlbəcər rayonunun Yanşaq kəndi ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür və onun erməni terrorçu-quldur dəstələri tərəfindən əsir götürüldüyü ehtimal olunur.

Babayev Qüdrət Əsəbala oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**BABAYEV NURƏDDİN SEYİDABBAS oğlu**



2 avqust 1962-ci ildə Azərbaycan Respublikasının Bakı şəhərində doğulmuşdur. Hərbi xidmətə qədər Bakı şəhərinin Yasamal rayonunda yaşamışdır. Yasamal RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Babayev Nurəddin Seyidabbas oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 13 yanvar 1994-cü ildə Füzuli rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Babayev Nurəddin Seyidabbas oğlu 13 yanvar 1994-cü il tarixində Füzuli rayonunun Yuxarı Seyidəhmədli kəndi ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı yaralanaraq döyüş bölgəsində qalmışdır və onun erməni terrorçu-quldur dəstələri tərəfindən əsir götürüldüyü ehtimal olunur.

Babayev Nurəddin Seyidabbas oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**BABAYEV RAUF ƏZİZAĞA oğlu**



23 may 1971-ci ildə Azərbaycan Respublikası Biləsuvar rayonunun Əmənkənd kəndində doğulmuşdur. Hərbi xidmətə qədər Bakı şəhərinin Suraxanı rayonunda yaşamışdır. Biləsuvar RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Babayev Rauf Əzizağa oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 3 mart 1994-cü ildə Füzuli rayonu ərazisində itkin düşmüşdür.

**Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Babayev Rauf Əzizağa oğlu 3 mart 1994-cü il tarixində Füzuli rayonunun Aşağı Seyidəhmədli kəndi ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür.**

Babayev Rauf Əzizağa oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**(Ardı növbəti sayımızda)**

# "Orucluğun neçənci günüdür" mübahisələri başlayıb...

**Müqəddəs Ramazan ayının gözəl günlərini yaşayırıq. Humanizm, barış, yardımlaşma ayı olan Ramazan Azərbaycan dövlət müstəqilliyi qazandıqdan sonra daha davamlı və möhtəşəm qeyd edilir. İnanclı insanlar oruc tutur, nəzir-niyaz paylayır, ehtiyacı olan insanları, əlsiz-ayaqsızları sevindirirlər.**

Bu gün Ramazan ayının neçənci günüdür? Bu sualı təsadüfi vermədik. Çünki Ramazan ayı daxil olandan indiyə qədər orucluğun günləri ziddiyyətli verilir. Mayın 21-i izlədiyimiz bir çox saytlarda Ramazanın 15-ci, bəzilərində isə 16-cı günü olduğu qeyd edilir.

Ramazanın günlərinin bu şəkildə təqdim edilməsi məlumatsızlıqdan irəli gəlir, yoxsa xüsusi təsirlərlə bağlıdır?

**Tanınmış ilahiyyatçı Hacı Təyyar Hüseynli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bu olduqca diqqətçəkən məsələdir.** "Bu mövzu olduqca aktualdır. Bu hal bu il yaranıb. Bir neçə il əvvəl bu məsələyə aydınlıq gətirilmişdi. Xüsusilə də Qafqaz Müsəlmanları İdarəsi Ramazan ayının başlanması ilə bağlı qərar qəbul etmişdi. Bu baxımdan da bu məsələdə problem yox idi. Ancaq, nədənsə, bu problem yenidən aktuallaşdı. Bu bir neçə il əvvəl də adət halını almış bir problem idi. Mən ona görə bunu problem adlandırıram ki, sözün əsl mənasında, XXI əsrdə bu kimi problemin olması çox absurddur. Əsas olaraq bildirim ki, Ay astrofizika rəsədxanaları tərəfindən anbaan müşahidə olunur, yəni Ayın Yer planeti ətrafında dövriyyəsi. Söhbət 355 gündən gedir. Bu gün əsl islam alimləri arasında bu problem yoxdur. Konkret olaraq Quran mövcuddur və Ramazan ayı da müqəddəs kitabımızdan keçir. Bununla bağlı şəriət, islam qayda-qanunları ilə bağlı kitablarımız da var. Hər hansı bir ölkədə Günəş tutulması, fəza cisimləri ilə bağlı məsafələrdən asılı olaraq Ay tutula bilər. O respublikanın əhalisi müşahidə edə bilər. Buna görə xüsusi ibadət ritualı da var. Ay tutulanda xüsusi bir ayət namazı qılınır. Amma başqa ölkələrdə ola bilsin ki, bu müşahidə edilməsin. Ola bilər ki, dövrəsindən asılı olaraq, başqa Şərq ölkələrində, başqa yerlərdə Ay görünsün və alimlər də əhaliyə desin ki, Ay göründüsə, ibadətinizi edin. Bu, ayın başlanması kimi qəbul oluna bilər. Gözlə görünmək köhnə məsələdir. İndi biz müasir dünyada yaşayırıq və müasir avadanlıqlar var, uzaq məsafələrdən belə, planeti müşahidə etmək olar. Mənə elə gəlir ki, bu gün Ramazan günlərinin fərqli verilməsi məqsədli şəkildə yaradılıb və xarici qüvvələr tərəfindən idarə olunur. Bu artıq deyilmişdi ki, ayın əvvəlində Ay İranda, İraqda müşahidə olunmadı. Sonradan Ay Azərbaycan fəzasında göründü, adi gözlə belə onu görmək mümkün oldu. Təəssüflər olsun ki, bu il Azərbaycanda ibadətli kütlə bu halın qarşısını ala bilmədi. Yenə də xaricdən gələn informasiyaya görə Ramazan ayının əvvəlindən ikifikirli, ikiqərarlı oldular. Belə götürəndə KİV-dən və sosial mediadan bəllidir ki, bir qayda üzrə Ramazan ayı ayın 6-dan başladı. Amma təəssüflər olsun ki, 7-dən də başlayanlar oldu. Ayın 6-dan və 7-dən start götürən Ramazan ayı gəlib Qədr gecələrində və Fitr bayramında da kütlələrin fikir ayrılıqları, fikir qarşıdurmaları ilə nəticələnəcək. Mən bunu absurd adlandırıram, hətta bunu xaricdən idarəetmə kimi qəbul edirəm. Azərbaycanda alim də, astrofizika rəsədxanası da, yetkin fikir də var. Bu o qədər sadə bir işdir ki... Amma bundan yararlananlar var".





*Hacı Təyyar Hüseynli: "Bu gün Ramazan günlərinin fərqli verilməsi məqsədli şəkildə yaradılıb və xarici qüvvələr tərəfindən idarə olunur"*

*İsmayıl Əhməd: "Bəzi İran və İraq alimləri bu fətvanı nəyə əsasən verdilər, niyə verdilər, mənə məlum deyil"*



T.Hüseynli qeyd etdi ki, görək xaricdən gələn fikirlə, informasiya, göstərişlə nə qədər insanı idarə etmək olar? Bəzilərinin xaricdən gələn fikirləri "mötəbər" qəbul edərək bu fikir üzrə hərəkət etdiklərini deyən ilahiyyatçı bildirdi ki, o, bu məsələdə alimləri günahlandırmır, sadəcə, bu informasiyanın yayılması ilə xüsusi məşğul olanlar var. "Qafqaz Müsəlmanları İdarəsi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi bu məsələ ilə bağlı səlahiyyətlidirlər. Respublika ictimaiyyətinə də Ramazan ayının ayın 7-də başlanması təqdim olunmayıb. Buna baxmayaraq, bu mövcuddur. Sözügedən qurumlar bu məsələyə aydınlıq gətirsələr, növbəti illərdə bu problemlər olmaz" - deyə T.Hüseynli bildirdi.

**Dinşünas İsmayıl Əhmədin fikrincə, Ramazan ayının günlərinin fərqli təqdim edilməsi bəzi İran və İraq alimlərinin verdiyi fətva ilə bağlıdır.** "Əslində, Ramazan ayının əvvəli, başlanğıc günü ilin əvvəlində tərtib edilən təqvimə əsasən bəlli idi. Orada may ayının 6-sı Ramazan ayının 1-ci günü olaraq göstərilib. Böyük əksəriyyət də bu təqvimi əsas gətirib may ayının 6-dan oruca başladı. Amma may ayının 5-i, saat 9-dan sonra bəzi İran və İraq alimləri fətva verdilər ki, yox, sabah hələ Şaban ayının 30-cu günüdür, Ramazan ayının 1-i may ayının 7-də olacaq. Bəzi İran və İraq alimləri bu fətvanı nəyə əsasən verdilər, niyə verdilər, mənə məlum deyil. Belə əsaslandırdılar ki, guya Ay görünməyib. Əslində isə onun heç bir əsası yox idi. Əslinə qalanda ayın görüntüsü hardasa saat 7-8 arasında, yəni 8-ə 10 dəqiqə qalmış müəyyən olunmalı idi. Bu fətva verildi və fətva veriləndən sonra may ayının 5-i axşam həmin alimlərin fətvalarına əsaslanan müsəlmanlar Ramazan ayını mayın 7-dən başladılar. Buna görə də belə bir fərq yarandı. Bu fərq də davam edəcək və Ramazan ayının bayramı da 1 günlə fərq edəcək. Mayın 6-dan oruc tutanlar iyun ayının 5-də bayram edəcək, mayın 7-dən oruc tutanlar iyunun 6-da bayram edəcəklər. Fərq bundan ibarətdir" - deyə İ.Əhməd bildirdi.

***İradə SARIYEVA***

## Azərbaycan ÜDM-də xarici borcun həcmini 17 faizədək azaldıb

**Bu günədək Asiya İnkişaf Bankı (AİB) Azərbaycanda 23 layihəyə 3,7 milyard dollar investisiya yerləşdirib. "Trend"in məlumatına görə, bunu Maliyyə naziri Samir Şərifov Bakıda keçirilən "Dövlət Borcunun İdarə Edilməsi üzrə Asiya Regional Forumu"nda deyib.**

Nazir bildirib ki, Azərbaycan AİB-lə əməkdaşlığı yüksək qiymətləndirir.

Onun sözlərinə görə, Azərbaycan müxtəlif sahələrdə islahatlar aparır və dövlət borcunun idarə olunması bu islahatların bir hissəsidir. Bu sahədə keçirilən islahatlar artıq nəticə verməyə başlayıb: "Biz hökumətin Ümumi Daxili Məhsulda xarici valyutada payını 17 faizədək azaltmışıq. Bu gün Azərbaycanın xarici valyutada nominal borcu ölkənin ümumi gəlirlərinin beşdə bir hissəsini təşkil edir".

S.Şərifov əlavə edib ki, islahatların nəticəsi olaraq ölkədə makroiqtisadi mühit sabitləşib, iqtisadiyyat artım trayektoriyasına qayıdıb və qeyri-neft sektoru inkişaf edir.

## Azərbaycanda xarici valyutada olan borclar milli valyutada olan borclarla əvəz ediləcək

**Ötən il xarici valyutada ifadə olunan dövlət borcunun ÜDM-ə nisbəti 5 faiz fəndi azaldılaraq, 24%-dən 19%-ə endirilib. "Trend"in məlumatına görə, bunu jurnalistlərə Maliyyə naziri Samir Şərifov deyib.**

O bildirib ki, birinci rübün yekunları üzrə olan bu göstərici ilin əvvəlinə olan göstəricidən cüzi fərqlənir: "Bu gün dövlət siyasətinin əsas tapşırıqlarından biri dövlət borcunun idarə olunmasının təkmilləşdirilməsidir. Bununla əlaqədar olaraq Azərbaycanda dövlət borcunun idarə olunmasının təkmilləşdirilməsi mexanizminin hazırlanması planlaşdırılır. Biz xarici valyutada dövlət borcunu azaltmağı və bunu milli valyutada borclanma ilə əvəz etməyi planlaşdırırıq".

Nazir əlavə edib ki, bu sxem dövlət borcunun nizamlanmasının dayanıqlığını gücləndirməyə imkan verəcək.

**Azərbaycanda dövlət səviyyəsində yaradıcı ittifaqlara və birliklərə diqqət və qayğı göstərilməsi artıq ənənəyə çevrilib. Naxçıvanda fəaliyyət göstərən yaradıcılıq qurumları, birlikləri də dövlət qayğısından kənarda qalmır.**

# Naxçıvanın da yaradıcılıq ittifaqları dövlətdən yardım aldı...




***Yaşar Xəlilov:** ”Bizim təşkilata vəsait ayrılması Naxçıvan bəstəkarlarının və musiqişünaslarının yaradıcılıq həyatında böyük rol oynayacaq”*

***Asim Yadigar:** ”Naxçıvan Yazıçılar Birliyinə mütəmadi olaraq dövlət qayğısı göstərilir”*

Belə ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov mayın 20-də yaradıcılıq ittifaqları və birliklərinin fəaliyyəti ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb. Sərəncam Naxçıvan Muxtar Respublikasının mədəni həyatında və ədəbi-ictimai fikrin formalaşmasında, mədəniyyətin və incəsənətin təbliğində və memarlığın inkişafında mühüm əhəmiyyət kəsb edən yaradıcılıq ittifaqları və birliklərinin fəaliyyətinə dövlət qayğısının daha da artırılması məqsədi daşıyır.

Sərəncamla Naxçıvan Muxtar Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Ehtiyat Fondundan Yazıçılar Birliyinə 25 min manat, Bəstəkarlar Təşkilatına 20 min manat, Dövlət Film Fonduna 15 min manat, Aşıqlar Birliyinə 15 min manat və Memarlar Birliyinə 12 min manat ayrılıb.

Dövlət tərəfindən Naxçıvanda mövcud olan yaradıcılıq qurumlarının fəaliyyətinin stimullaşdırılması üçün maliyyə vəsaitinin ayrılması, əlbəttə, müsbət addımdır.

**Naxıvan MR-in Bəstəkarlar Təşkilatının sədri, Naxçıvanın Əməkdar incəsənət xadimi Yaşar Xəlilov "Bakı-Xəbər"ə bildirdi ki, rəhbərlik etdiyi quruma vəsaitin ayrılması təşkilat üzvləri tərəfindən sevinclə qarşılanıb.** "Naxçıvan bəstəkarları, musiqişünasları, musiqiçiləri hər zaman dövlətin bizə göstərdiyi qayğını hiss edir və bu bizə böyük yaradıcılıq stimulu verir. Naxçıvan Ali Məclisinin sədri Vasif Talıbovun sərəncamı ilə digər yaradıcı qurumlarla yanaşı, Bəstəkarlar Təşkilatına da vəsait ayrılması çox müsbət hadisədir. Bu bizə imkan verəcək ki, bəstəkarlarımızın əsərlərini çap edək. Bizim təşkilata vəsait ayrılması Naxçıvan bəstəkarlarının və musiqişünaslarının yaradıcılıq həyatında böyük rol oynayacaq. Bu bizə göstərilən dövlət qayğısının təzahürüdür".

Y.Xəlilov qeyd etdi ki, Naxçıvan Bəstəkarlar Təşkilatının 12 üzvü var. Xalq artisti Tofiq Bakıxanovun da təşkilatın fəxri üzvü olduğunu deyən qurum sədrinin sözlərinə görə, burada həm musiqişünaslar, həm də bəstəkarlar təmsil olunurlar. Bəstəkarların əsərlərinin notlarının çapına gəlincə, təşkilat sədri qeyd etdi ki, imkan düşdükcə, onların əsərlərinin notlarını nəşr edirlər, lakin hazırda quruma ayrılan 20 min manat məbləğində olan vəsaitlə genişmiqyaslı işlər görmək mümkün olacaq. "Bu vəsait bizim təşkilatın fəaliyyətinə böyük bir dövlət yardımıdır" - deyə Y.Xəlilov bildirdi.

**Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, Naxçıvan MR-in Əməkdar mədəniyyət işçisi Asim Yadigar da "Bakı-Xəbər"ə açıqlamasında birliyə ayrılan maliyyə vəsaitinin Naxçıvan yazarlarına göstərilən böyük dövlət qayğısının təzahürü olduğunu bildirdi.** Naxçıvan MR Yazıçılar Birliyinin 80 nəfər üzvü olduğunu deyən birlik sədrinin sözlərinə görə, onlar hər zaman dövlət qayğısı ilə əhatə olunublar. "Naxçıvan Yazıçılar Birliyinə mütəmadi olaraq dövlət qayğısı göstərilir, birliyə maliyyə vəsaitinin ayrılması da növbəti addımlardan biridir. İndiyə qədər Naxçıvan MR-in şair və yazıçılarının əsərlərinin əhatə olunduğu 30-a yaxın almanax çap olunub və bu almanaxların da hər biri dövlət vəsaiti hesabına işıq üzü görüb. Bu almanaxların 15-i son dövrlərə, yəni mənim sədrliyim dövrünə düşüb. Biz uşaqlar üçün də kitablar nəşr etmişik. Sonra muxtar respublikanın gözəllikləri, təbiəti ilə bağlı, eyni zamanda, Naxçıvana həsr edilən kitablar çap olunub. Bu nəşrlərin hamısı dövlət vəsaiti hesabına, Ali Məclisin sədrinin qayğısı sayəsində işıq üzü görüb. Bu gün Naxçıvan Yazıçılar Birliyinin fəaliyyəti üçün hər cür şərait yaradılıb, birlik və birlik üzvləri dövlət qayğısı ilə əhatə olunub. Bizim üçün çox zəngin kitabxana yaradılıb. Birlikdə yazıçılarımızın, şairlərimizin kitablarının nəşr edilməsinə də dövlət dəstək verir, vəsait ayırır. 10-dan artıq ayrı-ayrı müəllifin kitabları dövlət vəsaiti hesabına nəşr olunub. Cənab sədrin sərəncamı ilə Naxçıvan Yazıçılar Birliyinə 25 min manat vəsait ayrılıb. Bu vəsait birliyə lazım olan avadanlıqlar alınmasına, yazıçı və şairlərlə bağlı tədbirlər keçirilməsinə və s. yaradıcılıq və texniki məsələlərin həllinə yönəldiləcək. Ola bilsin ki, biz də Bakıdakı Yazıçılar Birliyində olduğu kimi, bu vəsait hesabına yazıçı və şairlərlə bağlı tədbirlər keçirə, onları mükafatlandıra bilərik. Biz dövlətin Naxçıvan Yazıçılar Birliyinə göstərdiyi qayğı və diqqəti yüksək dəyərləndiririk. Bu qayğı və diqqət bizi daha da ruhlandırır, bizə qol-qanad verir" - deyə A.Yadigar qeyd etdi.

***İradə SARIYEVA***

**Azərbaycanda incəsənət əsərlərinin auksionunun keçirilməsi rəssamlar tərəfindən hər zaman arzu edilsə də, bu istiqamətdə hər hansı bir addım atılmırdı. Əlbəttə, Azərbaycan rəssamlarının, təsviri incəsənət ustalarının əsərlərinin auksionlara çıxarılması həm onların əsərlərinin təbliğatı baxımından, həm də rəssamların gəlir əldə etməsi nöqteyi-nəzərindən əhəmiyyətlidir.**

# Azərbaycanda ilk incəsənət əsərləri auksionu...



***Oqtay Əliyev:** ”Artıq Azərbaycanda da auksion keçirilməsi ənənəsinin əsası qoyulub və bu formalaşmaqdadır”*

***Mədəniyyət Nazirliyi:** ”Auksionun keçirilməsi respublikada mədəniyyət və incəsənət sahəsində biznes münasibətlərini yaratmaq, alıcı və satıcılar arasında əlaqə qurmaq...”*

Bu gün Azərbaycan rəssamlarının dünyada təbliğatı sahəsində mövcud problemlər hələ də qalır. Baxmayaraq ki, Mədəniyyət Nazirliyinin və Heydər Əliyev Fondunun təşəbbüsü, təşkilatçılığı ilə müxtəlif xarici ölkələrdə klassik və çağdaş Azərbaycan rəssamlarının əsərlərinin sərgisi təşkil edilir, onların tanıdılması istiqamətində sistemli işlər görülür. Bu gün dünyada incəsənət əsərlərinin təbliğ edilməsi və satılması məsələsində başlıca rolu auksionlar oynayır. Sirr deyil ki, dünya şöhrətli bir sıra rəssamların əsərləri çox baha qiymətə xarici auksionlarda satılır. Bu əsərlərin qiyməti hədsiz dərəcədə baha olur.

Azərbaycanın dünya şöhrətli fırça ustaları az deyil. Təkcə Səttar Bəhlulzadənin, Toğrul Nərimanbəyovun, Tahir Salahovun, Sakit Məmmədovun adını çəkmək kifayətdir ki, dediklərimiz öz təsdiqini tapsın. Rəssamların fırça nümunələri auksionlara çıxarılarkən həm satılır, həm də təbliğ edilir. Xarici ölkələrdə olduğu kimi, artıq Azərbaycanda da incəsənət əsərlərinin auksionu keçirilir. Belə ki, mayın 21-də "Hilton Baku" otelində ilk dəfə olaraq incəsənət əsərlərinin auksionu keçirilib. Qeyd edək ki, auksion Mədəniyyət Nazirliyi, Dövlət Rəsm Qalereyası və "Auction Baku" MMC-nin birgə təşkilatçılığı ilə reallaşıb.

Mədəniyyət Nazirliyindən "Bakı-Xəbər"ə verilən məlumata görə, auksion respublikada mədəniyyət və incəsənət sahəsində biznes münasibətlərini yaratmaq, alıcı və satıcılar arasında əlaqə qurmaq, bu biznes sahəsində rəqabətqabiliyyətliliyi gücləndirmək məqsədi daşıyır. Məşhur rəssamlar Böyükağa Mirzəzadə, Maral Rəhmanzadə, Gennadi Brijatyuk, Zakir Hüseynov, Tofiq Cavadov, İlham Mirzəyev, Mirazər Abdullayev, Mahmud Rüstəmov, Aslan Rüstəmovun əsərləri və "İnqermandland" adlı I Pyotr dövrünə aid döyüş gəmisinin maketi auksiona çıxarılıb.

*”Auksiona əsərləri çıxarılan rəssamların hamısı məşhurdur və onların əsərləri qiymətlidir”*

**Azərbaycan Rəssamlar İttifaqının üzvü, tanınmış rəssam-dizayner Oqtay Əliyev "Bakı-Xəbər"ə bildirdi ki, bu aksionun keçirilməsinin əhəmiyyəti var.** Auksionda hən klassik, həm orta və həm də yeni nəsil rəssamların əsərlərinin satıldığını deyən O.Əliyev hesab edir ki, bu, rəssamlara yaradıcılıq stimulu verəcək. "Bu aksiona məni də dəvət etmişdilər, təəssüf ki, işimin çoxluğundan orada iştirak edə bilmədim. Auksionun əsas məqsədi rəssamlara stimul vermək, onları həvəsləndirməkdir. Bilirsiniz ki, rəssamların hazırda vəziyyəti müsbət deyil, maddi cəhətdən sıxıntı çəkirlər, elə rəssamlar var ki, hətta material almağa pulları yoxdur. Belə auksionların keçirilməsi çox müsbətdir. Artıq Azərbaycanda da auksion keçirilməsi ənənəsinin əsası qoyulub və bu formalaşmaqdadır. Mənə elə gəlir ki, bu auksionun əhəmiyyəti böyük olacaq. Hazırda auksion keçirilir və biz bundan müsbət nəticələr gözləyirik. Bu auksionda hansı rəssamların əsərləri satılarsa, bu onların özlərinə, ailələrinə maddi dəstəkdir. Auksion sahəsi Azərbaycanda da Avropada və digər ölkələrdəki kimi formalaşsa, tez-tez auksionlar keçirilsə, rəssamlara bunun xeyri dəyə bilər. Burada onların həm əsərləri tanınar, həm də satılar. Auksiona əsərləri çıxarılan rəssamların hamısı məşhurdur və onların əsərləri qiymətlidir. Onlar dünya şöhrətli rəssamlardır". O.Əliyev qeyd etdi ki, mayın 21-də keçirilən auksionda gənc rəssamların əsərlərinin də olması onların öz sənətlərinə marağını bir qədər də artırır, onlarda sənətlə bağlı gələcəyə inam yaradır. "Bildiyimə görə, bu auksionda gənclər də iştirak edib. Auksionun əsas təşkilatçılardan biri Azərbaycan Dövlət Rəsm Qalereyasıdır. Bu auksiondan sonra başqa bir auksion keçiriləcək. Digər auksion "Expo" sərgi mərkəzində baş tutacaq. Bu auksion isə daha geniş olacaq" - deyə O.Əliyev bildirdi.

***İradə SARIYEVA***

№ 91 (3989) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

www.baki-xeber.com

22 MAY 2019-cu il

## Elan

Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsi idman mallarının alınması üçün kotirovka sorğusu elan edir. (Ünvan: Qaradağ rayonu, Şubani qəsəbəsi, tel: (050) 429-78-25).

Abbasov Füzüli Cahangir oğluna (Xanlıqlar kəndi) Şərur Rayon RHK tərəfindən verilmiş Əfqanıstan müharibəsi veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Müseyibov Vüqar Kalvayı oğlunun adına Daxili İşlər Nazirliyi tərəfindən verilmiş müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır (AA0005989, Binəqədi RPİ).

Kərimli İlkin Mehman oğluna Bakı Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Dadaşov Mirhəbib Rövşən oğluna Bakı Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Həsənzadə Fuad Namiq oğluna Bakı Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

İsayev Zamin Rövşən oğluna Bakı Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Qasımov Cavid Arif oğlunun (VÖEN 1700694762) adına №659601-dən №659700 qədər kassa mədaxil orderi itdiyi üçün etibarsız sayılır.

Maqaldadze Nina Viktorovnanın ( VÖEN 1700919322) adına №1535531-dən №153700 qədər kassa mədaxil orderi itdiyi üçün etibarsız sayılır.

Əzimov Suad Fuad oğluna Azərbaycan Turizim və Menecment Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

"Beaty Space" MMC-yə məxsus (VÖEN №1503232221) vergi haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

Musayev Habil Ağahüseyn oğlunun adına, Abşeron rayonu, Xırdalan şəhəri, Babək küçəsi, ev 33 B ünvanının çıxarışı (seriya RX № 0338056 ) itdiyi üçün etibarsız sayılır.

Əliyeva Gülnarə Nəsib qızının adına, JN-902A kod 30800036 torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

Hüseynova Xanım Yadigar qızına Bakı Mühəndislik Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Hümbətov Alı Ramil oğluna Bakı Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Səmədov Ayaz Elnur oğluna Bakı Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Əliyeva Günay Nadir qızına Bakı Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Şükürzadə Şükür Rəsul oğluna Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Atakişiyev Kəramət Qalib oğluna Bakı Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Qasımov Fuad Taleh oğluna Bakı Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Əfəndiyeva Mirvari İsmayıl qızının adına, Bakı şəhəri, Sabunçu rayonu, Ləhiş bağlarında yerləşən № 6000 bağ sahəsinə verilmiş № 30065 müqavilə itdiyi üçün etibarsız sayılır.

Nağıyev Məhəmməd Biliadon oğluna Azərbaycan Respublikası Müdafiə Nazirliyi tərəfindən verilmiş müharibə veteranı vəsiqəsi (M/V № 002491) itdiyi üçün etibarsız sayılır.

## "Hitlerin konvoyu"ndan olan məşhur sualtı gəmi Danimarka sularında tapıldı

**Hitlerin cəsədi Danimarka sahillərində sualtı gəmidə ola bilər. "Daily Mail" xəbər verir ki, "Hitlerin konvoyu"ndan olan məşhur sualtı gəmi Skandinaviya ölkəsinin sularında aşkar edilib.**



Tədqiqatçıların fərziyələrinə əsasən, Hitler Berlindən məhz bu qayıqla qaça bilib. Onların fikrincə, 9 may 1945-ci ildə iqamətgahının yaxınlığında tapılan isə onun oxşarının cəsədi idi. Nəşr yazır ki, tapıntı Danimarkanın Skaqen şəhərindən 10 dəniz mili şimalda aşkar edilib. 6 may 1945-ci ildə Britaniyanın "B24 Liberator" adlı ağır bombardmançısı "Hitler Konvoyu"na aid sualtı gəmini məhz burada məhv edib. Dənizin dibinin skan edilməsi göstərib ki, sualtı gəmi hazırda 123 metr dərinlikdə yerləşir və onu tədqiq etmək çətindir. Tədqiqatçıların ehtimalına görə, sualtı gəmidə general Borman və faşist dövlətinin başçısı Adolf Hitlerin qalıqlarının olması mümkündür. Hazırda tədqiqat qrupu bu layihə üçün vəsait toplayır.

## Plutonda okean tapıldı

**Plutonun səthinin altında maye okean mövcud ola bilər. Trend-in məlumatına görə, bir qrup Yaponiya və ABŞ alimləri aparılan müşahidələr nəticəsində bu qənaətə gəliblər.**

Qeyd olunur ki, səthin altında yer alan okean bu səbəbdən donmaqdan müdafiə olunur. Plutonda okeanın olub-olmaması ilə bağlı müşahidələr "New Horizons" kosmik aparatının 2015-ci ildə çəkdiyi şəkillər əsasında aparılıb.

Bu cür səthaltı okeanların digər uzaq planetlərdə də ola biləcəyi ehtimal edilir.

## "Azercell" şirkəti "Optimal Elektronika" MMC-nin yeni rəqəmsal tərəfdaşıdır

**"Azercell" şirkəti 71-dən çox pərakəndə satış nöqtəsinə sahib olan və Azərbaycanın elektronika sahəsində aparıcı pərakəndə satış şirkətlərindən biri olan "Optimal Elektronika" MMC ilə yeni müqavilə imzalayaraq, şirkətin rabitə tərəfdaşı olduğu haqqında məlumatı yayımlayır.**

Sövdələşməyə əsasən, "Azercell"in müasir mobil şəbəkəsi üzərindən internet və danışıq xidmətlərindən yararlanmaqla yanaşı, həmçinin, "Optimal Elektronika" MMC-yə şirkətin yenilənmiş, idarə edilən rəqəmsal marketinq xidmətləri vasitəsilə öz rabitə xərclərinə nəzarət etmək, onları öncədən təyin etmək və eyni zamanda, alıcılarına ən yaxşı müştəri təcrübəsini yaşatmaq fürsətini təklif edir.

"Mən bu razılaşmanı şirkətimizin iş planlarına əsasən, iş prosesinin sadələşdirilməsi, əməliyyat effektivliyinin artırılması və əməkdaşlığın gücləndirilməsi istiqamətində mühüm bir addım kimi görürəm. Mürəkkəbliyin azaldılması bizim inkişaf strategiyamızın əsas hissəsidir. Məhsuldarlığı və effektivliyi davamlı olaraq təkmilləşdirməklə, biz müştərilərin ehtiyaclarını daha yaxşı qarşılaya bilərik. Bizim şirkətimizin gələcək inkişafını dəstəkləmək üçün düzgün rabitə platforması təqdim edən "Azercell"lə işbirliyindən məmnunam", - deyə "Optimal Elektronika" şirkətinin direktoru cənab Əhəd Əsgərov bildirib.

Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.





**Qoç** - Bu yaxınlarda başladığınız işi uğurla başa vurmaq üçün var qüvvənizlə çalışın. Yorulmağınız istisna deyil. Lakin ruhdan düşməyin, ətalətə qapılmayın, süst olmayın.



**Buğa** - Yolda, işdə, ünsiyyətdə ehtiyatlı, sayıq olun. Sizə birbaşa dəxli olmayan işlərə qatılmayın. Soyuqqanlı və məntiqli olmasanız, səhər saatlarındakı fikir anlaşılmazlığı sonradan münaqişəyə çevrilə bilər.



**Əkizlər** - Tez və dərhal qazanc götürməyə, mənfəət əldə etməyə çalışmayın. Belə olarsa, bel bağladığınız gəlirdən ən son anda məhrum ola bilərsiniz. Yol verdiyiniz səhvləri sıralamayın, yanlış davranmayın, tələsik və emosional qərarlar verməyin.



**Xərçəng** - Mütləq şəkildə niyyətinizə çataraq planınızı reallaşdırmağa çalışın. Cəsur, məqsədyönlü, ağıllı və məntiqli olun. Aktiv çalışın, irəliləyin, yerinizdə saymayın, süst və ətalətli olmayın.



**Şir** - Gün ərzində emosional məzmunlu addımlar ataraq düşünülməmiş qərarlar qəbul etməyin. Günün ikinci yarısında diplomatik davranın, özünütənqidi unutmayın. Yaşlılara sayğı ilə yanaşın.



**Qız** - Nəyin bahasına olursa-olsun, başlanmış işi başa vurun. Gərgin və emosional şəraitdə riskli addımlar ataraq müstəqil qərarlar qəbul edin. İncikliyə vaxt sərf etməyin, əks təqdirdə işlər xoşagəlməz məcraya yönələcək.



**Tərəzi** - Məqsədə yalnız maneələri dəf etməklə çatmaq mümkündür. Aktiv olun, planların həyata keçirilməsi prosesində əsla geri çəkilməyin, kimsəyə güzəştə getməyin, qətiyyətli və iradəli davranın.



**Əqrəb** - Yaranan şərtlər situasiyanı formalaşdırır. Rahat və harmonik yaşama nə qədər can atsanız da, şərtlərlə barışmaq məcburiyyətindəsiniz. Gərgin iş qrafikində çalışmağa hazır olun.



**Oxatan** - Mövqelərinizi qorumaq və irəliləyişə nail olmaq üçün hisslərinizə nəzarət edin. Qorxu, qəzəb, qısqanclığın öhdəsindən gəlin. Belə hisslər uğur şanslarınızı azalda bilər. İdeyaları yeniləyin, amma hisslərlə oynamayın.



**Oğlaq** - Bədxahın avantürasına, rəqibin yaramazlığına, işlərin çətinləşməsinə hazırlaşın. Seçim imkanlarınız çox məhduddur, çünki, baş verənlərin təşəbbüskarları başqalarıdır. Qalmaqallara qatılmayın və münaqişələrdən uzaq durun.



**Dolça** - Günün ilk yarısından etibarən qətiyyətlə irəliləyin, əzmli və inadkar olun. Sizdən asılı nə varsa, yerinə yetirin. Sükan arxasında, yolda, ictimai nəqliyyatda ehtiyatlı olun. Günün ikinci yarısı sizə sınaq hazırlayır.



**Balıqlar** - Gün ərzində hissləriniz sınağa çəkiləcək. Hətta, ən sakit adam olsanız belə, qıcıqlana və hirslənə bilərsiniz. Şəxsi münasibətlərlə yanaşı, işgüzar, maliyyə, peşəkar sahələrdə münaqişələr istisna deyil.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Jurnalist robot da yaradıldı

**Süni intellekt şirkəti "Primer" yeni robot hazırlayıb. "Axios" adı verilən robot insanlar kimi yazılara uyğun məntiqli başlıq qoya bilir.**

"Milli.Az" xəbər verir ki, bu robot bir milyondan çox xəbər və xəbər başlığını oxuya bilir. Əvvəlki təcrübələrə əsasən onların içərisindən ən uyğun sözləri seçib başlıq yazır. Hətta, robotun hazırladığı başlığı insanların yazdığı başlıqla səhv salanlar da var. Şirkətin direktoru Con Bahonnon bunun bir "başlıq türinq testi" olduğunu deyir. İngiltərəli riyaziyyatçı Alan Türinqin etdiyi testə görə bir kompüterin "ağıllı" adlandırılması üçün özünü qarşısındakına insan olduğunu inandırmasıdır. Robotun insanların istifadə etdiyi kimi bir təbii dil hazırlaması gözlənilir. Hazırda bu məsələnin çətin olması təəssüratı yaransa da, mümkünsüz deyil.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: Aydın Quliyev

Baş redaktorun müavini: Tahir Tağıyev

Redaksiyanın ünvanı: Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə

Tel-faks: 510-87-40; 510-87-38; 510-87-39

e-mail: azer22@mail.ru

Reyestr № 0106-P219-45846

Qazet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

Sifariş: №2514 Tiraj: 3050

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.